# ƏZİZ QADINLAR, BAYRAMINIZ MÜBARƏK!


Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 55 (8078) CÜMƏ, 8 mart 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


## İLHAM ƏLİYEV 86 yaşlı Saray nənəni ikinci dəfə ziyarət etdi: “Bilirdim ki, İlham gələcək, gəldi də....”



### İlham Əliyev və Mehriban Əliyeva vətəndaşları şəxsən dinlədilər, məktubları özləri qəbul etdilər, yeni mənzillərdə oldular və növbəti yaşayış binasının təməlini qoydular

**Martın 7-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva zəlzələnin fəsadlarının aradan qaldırılması ilə bağlı görülən işlərlə tanışlıq məqsədilə Şamaxıda səfərdə olublar.**

AZƏRTAC xəbər verir ki, bu il fevralın 5-i və 6-da baş verən zəlzələlər nəticəsində İsmayıllı və Ağsu rayonları ilə yanaşı, Şamaxı rayonunda da fərdi evlərə, sosial və infrastruktur obyektlərinə ziyan dəyib. İndiyədək Şamaxıda 4893 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244 ev kəskin qəzalıdır. Onlardan da 96-sı şəhər, 35-i qəsəbələr, 113-ü isə kəndlər üzrədir. Hazırda şəhər üzrə kəskin qəzalı hesab edilmiş evlərdən 6-sı inşa olunur. Rayonda ümumilikdə 1111 evin bərpasına və gücləndirməsinə ehtiyac var ki, onlardan da 561-i şəhərdə, 87-si qəsəbələrdə, 463-ü isə kəndlərdədir. Şamaxıda təbii fəlakətlə bağlı şəhər üzrə 866, qəsəbələr üzrə 123, kəndlər üzrə isə 811 olmaqla, ümumilikdə 1800 evin təmirə ehtiyacı var.

Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən tədbirlər nəticəsində artıq zəlzələnin fəsadları aradan qaldırılır. Bu məsələdə dövlət başçısının imzaladığı müvafiq sərəncam və Prezidentin Ehtiyat Fondundan ayrılan vəsait xüsusi əhəmiyyətə malikdir.

Onu da qeyd edək ki, Heydər Əliyev Fondunun “Regional İnkişaf” İctimai Birliyinin nümayəndələri də zəlzələdən dərhal sonra təbii fəlakətdən zərərçəkmiş ərazilərdə olub, yeraltı təkanların vurduğu fəsadları araşdıraraq sakinlərin müraciətlərini qeydə alıblar. Toplanmış məlumatlar fondun rəhbərliyinə məruzə edilib.

❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əvvəlcə şəhərin Salman Mümtaz küçəsində Rasim Həsənova məxsus yeni inşa olunmuş evə gəldilər. Bu ev zəlzələ zamanı qəzalı vəziyyətə düşmüşdü.

Ardı 2-ci səh.

## “Mən gəlmişəm ki, problemləri həll edim”



### PREZİDENT zəlzələdən ziyan çəkmiş bütün evlərin təmir ediləcəyinin, yaxud da yenidən tikiləcəyinin müjdəsini verdi

Bax: səh. 4



## Azərbaycan qadınının cəmiyyətdəki mövqeyi layiqli və möhkəmdir

**Bu gün 8 mart Beynəlxalq Qadınlar Günüdür. 162 il əvvəl, 1857-ci ilin 8 mart tarixində qadınlar ABŞ-da aşağı maaşa və ağır iş rejiminə etiraz olaraq tətil keçiriblər. 1977-ci ildə BMT bu günü qadın günü kimi rəsmiləşdirib. Azərbaycanda da Beynəlxalq Qadınlar Günü geniş qeyd olunur. Təsadüfi deyil ki, martın 8-i ölkədə qeyri-iş günüdür.**

Azərbaycanda özünəməxsus milli dəyərlərdən, adət-ənənələrdən irəli gələrək tarix boyu qadına dərin hörmət və ehtiramla yanaşılmış, ana adı uca tutulmuşdur. “Kitabi-Dədə Qorqud” boylarının qadın surətləri bu gün də öz məziyyətləri ilə bəşəri idealların təntənəsinə xidmət edir. Azərbaycan gerçəkliyi şair və mütəfəkkirlərə qadınları həyat mənbəyi və müdriklik mücəssəməsi kimi vəsf etmək üçün zəngin tarixi material vermişdir. Dahi Nizami öz əsərlərində Məhinbanu və Nüşabə kimi qadın hökmdar, əfsanəvi Fitnə və yeddi gözəl obrazlarını yaratmışdır. Görkəmli memar Əcəmi Naxçıvani tərəfindən ucaldılmış Möminə xatun türbəsi əzəmətli memarlıq abidəsi olmaqla yanaşı, xalqımızın qadına göstərdiyi ehtiramın parlaq təcəssümüdür.

Məğrur hökmdar Tomris, Qızıl Arslanın xanımı Qətibə xanım, qadının azadlıq hüququnu tərənnüm etmiş Məhsəti Gəncəvi, qoca Şərqin ilk diplomat qadını Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Fətəli xanın həyat yoldaşı Tuti Bikə, Şuşada ilk ədəbiyyat məclisi yaratmış Xurşudbanu Natəvan və fəaliyyətləri əfsanəyə çevrilərək təfəkkürümüzə hopan neçə-neçə Azərbaycan qadını xalqımızın zəngin mənəvi keçmişinin müəllifləridir. Nigar, Həcər kimi qadınlar həm də mərdlik, şücaət, qəhrəmanlıq mücəssəməsi kimi qəbul edilmiş, döyüş meydanlarında həyat yoldaşlarının silahdaşı, arxa-dayağı olmuşlar.

XX əsr bütün dünyada qadınların rolunun cəmiyyətdə artması ilə yadda qalmışdır. Azərbaycan qadını da istər Xalq Cümhuriyyəti dövründə, istərsə də sovet hakimiyyəti illərində və müstəqillik bərpa edildikdən sonra yaradılan imkanlardan xalqın, dövlətin, cəmiyyətin mənafeyi naminə çox səmərəli istifadə etmişdir. Azərbaycan XX əsrdə demokratik inkişaf tarixləri olan əksər dövlətlərdən əvvəl - 1918-ci ildə qadınlara seçki hüququ verib.

Bu gün ölkədə həyata keçirilən siyasət dövlətimizin müstəqilliyini daha da möhkəmləndirir, beynəlxalq nüfuzunu yüksəldir, bütün sahələrdə dinamik inkişafını təmin edir. Fərəhli haldır ki, bu proseslərdə qadınlar da fəal iştirak edir, ölkəmizin uğurları naminə səylərini əsirgəmirlər. Ümumiyyətlə, Azərbaycanda qadın hərəkatı müstəqillik illərində daha da inkişaf etmişdir. Məhz ulu öndər Heydər Əliyevin 1993-cü ildə ölkəyə rəhbərlik etməyə başlamasından sonra həyata keçirilən dövlət siyasəti qadınların cəmiyyətdəki fəallığını daha da artırdı. O cümlədən qadın hərəkatı dövlət tərəfindən təşviq edildi.

Bu siyasəti davam etdirən Prezident İlham Əliyev həmişə qadınların cəmiyyətdəki fəallığını, siyasi-ictimai proseslərdə iştirakını yüksək qiymətləndirir. Bunu Prezidentin hər il 8 mart Beynəlxalq Qadınlar Günü ərəfəsində qadınlara ünvanladığı təbrikdən də görmək mümkündür.

Ardı 6-cı səh.

## Dövlət başçısına minnətdarlıq

### Mədəniyyətimizə qayğı həm də milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət edir

**Ölkəmizin mədəniyyət sahəsindəki inkişaf özünü müxtəlif formalarda göstərir. Bu, ilk növbədə sürətli iqtisadi inkişafla sıx bağlıdır. Məhz maddi-texniki bazanın müasir tələblər səviyyəsində yenidən qurulması fonunda ölkədə fəaliyyət göstərən 25 dövlət teatrının və digər kollektivlərin, həmçinin 219 muzeyin, 35 rəsm qalereyasının, 3200-dək kitabxana-informasiya sahəsinin, 100-dən çox yüksək təmirli mədəniyyət sarayının, bölgələrdə yaradılan, hər biri geniş istirahət parkına malik olan Heydər Əliyev adına mərkəzlərin qaynar həyatında da müşahidə olunur.**

Azərbaycan Prezidentinin ölkənin mədəni həyatındakı mövcud durumu dəyərləndirərək, dövlət büdcəsindən bu sahənin inkişafına ayırdığı maddi vəsait eyni zamanda xalqımızın bu sahədəki sənətkarlarını sevindirir, ruhlandırır. Onlar həm də bunun məsuliyyətini bilir və öz üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyə səy göstərirlər.

Mart ayının 1-də dövlət başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın mədəniyyət xadimlərinin bir qrupu ilə görüşündə mədəniyyətin inkişafı ilə bağlı məsələlər öz aktuallığı ilə diqqəti cəlb etdi. Çünki ölkənin tanınmış mədəniyyət və incəsənət xadimlərinin həmin görüşdə qaldırdığı məsələlər ümummilli əhəmiyyət daşıyırdı.

Ardı 6-cı səh.

# İLHAM ƏLİYEV 86 yaşlı Saray nənəni ikinci dəfə ziyarət etdi:

*Əvvəli 1-ci səh.*















**Saray nənə:** Xoş gəlmisiniz. Canım qurban, gələn ayaqlarınız var olsun.

**Prezident İlham Əliyev:** Necəsiniz?

**Saray nənə:** Sağ olun, qadan alım. Mehriban xanıma canım qurban.

**Birinci xanım Mehriban Əliyeva:** Salam. Çox şadam.

**Saray nənə:** Nəvəli-nəticəli olasan, ay qızım. Mənim qədər nəvə-nəticə görəsən. Mən görmüşəm, Allaha şükür. Gələn ayaqlarınıza qurban olum.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ olun, Allah sizə uzun ömür versin.

**Saray nənə:** Elə bil ki, Siz gəlişinizlə məni götürüb dağın başına qoymusunuz, qeyrətli balam. Çox sağ ol, çox var ol. Bizim üçün hər şey etmisiniz. Allaha çox şükür ki, gəlmisiniz.

**Birinci xanım Mehriban Əliyeva:** Necə ola bilərdi ki, gəlməyək.

**Saray nənə:** Allah haqqı mən bilirdim ki, İlham gələcək. Gələn ayaqlarına canım qurban, gəldi də, hər cür şəraiti yaratdı da. Bir ana kimi mənim hər bir sözümü də yerinə yetirdi. Gələn ayaqlarına bu canım qurban.

**Mehriban Əliyeva:** Mənə sizdən o qədər danışırdı ki, gözləyirdim, nə zaman gəlib sizinlə tanış olacağam.

**Saray nənə:** Sizin qadanızı alaram. Sağ olun ki, gəlmisiniz, mən də Sizi gözləyirdim. Mən Sizi çox istəyirəm.

**Prezident İlham Əliyev:** Bir ay keçdi, yenə görüşürük. Bir ay keçdi gəldim. Bir aydan sonra artıq sizin üçün gözəl ev hazırdır.

**Saray nənə:** Sağ olun, Sizin sayənizdə. Mən Allaha inandığım kimi bilirdim ki, gələcəksən.

**Prezident İlham Əliyev:** Zəlzələdən sonra birinci tikilmiş ev sizin evinizdir.

**Saray nənə:** Sağ olun, elədir. Hər cür şərait yaratmısan. Çox sağ ol, çox var ol. Allah-Təala ömrünüzü uzun eləsin. Yoldaşınla qarıyasan, nəvəli-nəticəli olasan.

**Prezident İlham Əliyev:** Çox sağ ol.

**Birinci xanım Mehriban Əliyeva:** Çox sağ ol.

**Saray nənə:** Siz sağ olun, bizim üçün çox iş gördünüz. Allah hamınızın işini avand eləsin.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva evdə yaradılan şəraitlə tanış oldular.

**Prezident İlham Əliyev:** İndi şərait necədir?

**Sevda Həsənova:** Çox sağ olun. Sizinlə qürur duyuruq. Sağ olun ki, Azərbaycan xalqının arxasında durmusunuz.

**Prezident İlham Əliyev:** Burada şəklimiz var. Yəqin ki, bugünkü şəkli də əlavə edərsiniz.

**Sevda Həsənova:** Sağ olun. Allah Sizə cansağlığı versin. Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Evin ölçüləri əvvəlkindən daha böyükdür.

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov:** Bəli, çox böyükdür, 131 kvadratmetrdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha sonra Saray nənə və ailə üzvləri ilə birlikdə çay süfrəsi arxasında söhbət etdilər.

**Saray nənə:** Siz də balamsınız, özü də qeyrətli, namuslu. Qurban olum qeyrətinə, mənim başımı çox uca etmisən.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz. Bütün Azərbaycan sizi tanıyır, bütün Azərbaycan sizi sevir.

**Saray nənə:** Şükür Allaha, mən də qeyrətli qadın olmuşam. Üzüm bağlarında məftil çəkmişəm.

**Prezident İlham Əliyev:** Bir aya bu bina tikildi. O birilər də tikiləcək. Həm burada, həm Ağsuda, İsmayıllıda qəzalı, uçulan bütün binalar yenidən tikiləcək. Dünən Ağsuda idim, orada da vətəndaşlarla görüşdüm, orada da evlər uçulub. Onlara da dedim ki, bütün evlər tikiləcəkdir. Siyahı tutulub, qəzalı evlərin hamısı dövlət tərəfindən tikiləcək.

**Saray nənə:** Qadanı alım, ay İlham.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ailə üzvlərinin istək və xahişlərini dinlədilər. Dövlət başçısı bu məsələlərlə bağlı müvafiq tapşırıqlarını verdi.

**Saray nənənin gəlini Sevda Həsənova:** Allah köməyiniz olsun. Sizdən yerlə-göy qədər razıyıq. Biz Sizinlə qürur duyuruq, çox sağ olun, var olun.

**Prezident İlham Əliyev:** Zəlzələ təbii fəlakətdir. Bu, əvvəllər də olub. Bir neçə il bundan əvvəl Zaqatalada, Balakən bölgəsində də olubdur. Orada da 3 mindən çox ev yenidən tikildi. Burada da indi 1000-dən çox ev yenidən tikiləcək, bərpa olunacaq. Xoşbəxtlikdən heç kim həlak olmayıb, hamı sağ-salamatdır. Biz də sizinlə tanış olduq və yeni bir ev də tikildi. Şamaxı, Ağsu, İsmayıllı rayonlarında zəlzələdən ziyan çəkmiş qalan evlər də tikiləcək, bərpa olunacaq. Vətəndaşlar da bunu bilir. Onu da deməliyəm ki, ancaq Azərbaycanda bu işlər bu qədər qısa müddət ərzində görülür. Hər yerdə zəlzələ, daşqın olur. İnkişaf etmiş ölkələrdə dövlət, ümumiyyətlə kömək etmir, bütün evlər sığortalıdır, vətəndaş sığortanı ödəyir, zəlzələ olandan sonra sığorta şirkətinə müraciət edir. Onlar baxırlar, təhlil aparırlar. Aylarla vaxt keçir, sonra da ona sığorta pulu verilir, gedir özü tikir. Amma Azərbaycanda necədir? Zəlzələdən bir gün sonra komissiya gəldi, Fövqəladə Hallar Nazirliyi, icra hakimiyyəti. Ona görə bu bir daha göstərir ki, Azərbaycan dövləti Azərbaycan vətəndaşının yanındadır, onun arxasındadır və ağır vəziyyətə düşən vətəndaş hər zaman bilməlidir ki, dövlət ona kömək edəcək. Görülən işlər, bax, budur. Bu, birincidir. Hələ minlərlə ev tikiləcək.

**Saray nənə körpəni göstərərək dedi:** Bu mənim nəticəmdir, adı Emindir. Gələn ayaqlarınız var olsun. Gördüyünüz işlərə görə çox sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Salman Mümtaz küçəsinin sakinləri ilə söhbət etdilər, onları narahat edən məsələləri dinlədilər.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Sakinlər:** Salam, xoş gəlmisiniz. Allah Sizi qorusun. Bizə şərəf verdiniz. Çox sağ olun, Allah razı olsun.

**Qadın sakin:** Sizə məktubum var.

**Prezident İlham Əliyev:** Baxaram.

**Qadın sakin:** Bizim də evimiz sökülür, orada tikilir.

**Prezident İlham Əliyev:** Uçulub? Mən baxacağam mütləq, evlərlə bağlı narahat olmayın. Bütün evlər bərpa olunacaq.

**Qadın sakin:** Sağ olun ki, Azərbaycanı belə tikirsiniz, qurursunuz. Allah işinizi avand etsin, Sizi ölkəmizdən əskik etməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

❖ ❖ ❖

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vahid Şıxıyevin inşası davam edən evinə də baxdılar.

**Prezident İlham Əliyev:** Sizin evinizdir?

**Vahid Şıxıyev:** Xoş gəlmisiniz, cənab Prezident, bəli.

**Prezident İlham Əliyev:** Görürsünüz, necə qısa müddət ərzində tikilir.

**Vahid Şıxıyev:** Sökülüb, yerində təzəsi inşa olunur. Allah Sizə cansağlığı versin, başımızın üzərindən əskik etməsin, cənab Prezident.

**Prezident İlham Əliyev:** Daha da gözəl ev olacaq.

**Vahid Şıxıyev:** Bəli, nəvələrimin, ailəmin adından Sizə dərin təşəkkürümüzü bildiririk, çox sağ olun.

**Vahid Şıxıyevin həyat yoldaşı:** Allah Sizi Azərbaycan xalqına çox görməsin. Biz fəxr edirik ki, Sizin kimi Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Evin tikintisi təxminən nə vaxt başa çatacaq?

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov:** Təxminən bir aya, ay yarıma.

**Prezident İlham Əliyev:** Bir aya. İndi siz harada yaşayırsınız?

**Vahid Şıxıyev:** Biz yaxın qohumun evində yaşayırıq. Sağ olsun qohum-əqrəba.

**Prezident İlham Əliyev:** Bir az gözləyin, maksimum bir aya tikiləcək.

**Vahid Şıxıyev:** Allah köməyiniz olsun.

**Prezident İlham Əliyev:** Saray nənənin evini də görürsünüz.

**Vahid Şıxıyevin həyat yoldaşı:** Allah Sizdən razı olsun.

❖ ❖ ❖

Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Teymur Əliyarbəyov küçəsində Elmira Həsənovaya məxsus yeni yaşayış evində də yaradılan şəraitlə tanış oldular.

**Elmira Həsənova:** Salam, xoş gəlmisiniz.

**Mehriban Əliyeva:** Salam, sizinlə telefonla danışmışdıq.

**Prezident İlham Əliyev:** Şərait necədir?

**Elmira Həsənova:** Çox sağ olun, hər şey əladır. Sənə qurban olum.

**Elmira Həsənovanın qızı:** Mehriban xanım, mən həmişə Sizi görmək istəyirdim.

**Mehriban Əliyeva:** Eləmi, mən də səni.

**Elmira Həsənova:** Allah Sizi əskik etməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

Sonra xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rayonun mərkəzində Heydər Əliyev mədəniyyət və istirahət parkında ulu öndərin abidəsini ziyarət etdilər, önünə gül dəstəsi qoydular.

❖ ❖ ❖

Zəlzələ zamanı şəhərin Səttar Bəhlulzadə küçəsində Vüqar Teyfurovun evi də qəzalı vəziyyətə düşmüşdü. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva həmin evin yerində yeni inşa edilən evdə yaradılan şəraitlə maraqlandılar.

**Vüqar Teyfurov:** Xoş gəlmisiniz, cənab Prezident.

**Prezident İlham Əliyev:** Salam, xoş gördük.

**Mehriban Əliyeva:** Xoş gördük.

**Prezident İlham Əliyev:** Ev hazırdır?

**Vüqar Teyfurov:** Allah köməyiniz olsun, tam hazırdır. Ailəmiz adından təşəkkür edirik. Çox sağ olun, Allah Sizi var eləsin. Çiçəklənən Azərbaycan naminə Allah Sizə ömür versin, tikin, yaradın.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

Dövlət başçısı və birinci xanım evdə yaradılan şəraitlə tanış oldular.

**Prezident İlham Əliyev:** Pianino da var. Sən ifa edirsən?

**Vüqar Teyfurov:** Bəli, cənab Prezident, mən musiqiçiyəm. Bağışlayın, əgər istəsəniz Sizin üçün musiqi də ifa edə bilərəm.

**Prezident İlham Əliyev:** Olar, buyur.

Sonra dövlət başçısı və birinci xanım Vüqar Teyfurovun ifasını dinlədilər.

**Prezident İlham Əliyev:** "Ana" və "Xalq Heydər söyləyəcək" mahnılarını çox gözəl ifa etdin. Özü də belə improvizasiya ilə.

**Vüqar Teyfurov:** Təşəkkür edirəm.

Sonda xatirə şəkli çəkdirildi.

# “Bilirdim ki, İlham gələcək, gəldi də....”

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şamaxı sakinləri ilə görüşdülər.

**Sakinlər:** Xoş gəlmisiniz, cənab Prezident.

**Sakin:** Cənab Prezident, bu uşağın adı da İlham Əliyevdir. Səni görməkdən ötrü gəlib.

**Sakin:** Sənə qurban olum. Müəllimərn, qocaman müəlliməyəm.

**Sakin:** Sizi salamlayıram. Xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Sakin:** Sizi salamlayırıq, dəstəkləyirik, xoş gəlmisiniz.

**Sakin:** Uşağımın köməyə ehtiyacı var.

**Prezident İlham Əliyev:** Mən sizə kömək edərəm.

**Sakin:** Fəxr edirik ki, Sizin kimi Prezidentimiz var.

**Prezident İlham Əliyev:** Sağ olun. Mən də sizinlə fəxr edirəm. Narahat olmayın, bütün məktublara baxılacaq.

**Sakin:** Cənab Prezident, Sizə minnətdarıq. Mənim də kreditlə bağlı problemim vardı. Bu məsələnin həlli ilə bağlı verdiyiniz fərmana görə təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Nə qədər götürmüşdün?

**Sakin:** Beş min dollar götürmüşdüm. Hətta mənə kompensasiya da çatacaq.

**Prezident İlham Əliyev:** Sənə pul da qaytaracaqlar.

**Sakinlər:** Allah Sizi var eləsin. Allah Sizi bu xalqın üstündən əskik eləməsin.

Daha sonra **Prezident İlham Əliyev** çıxış edərək dedi:

- Əziz dostlar, sizi salamlayıram. Şamaxıda baş vermiş zəlzələ nəticəsində dağılmış bütün evlər yenidən tikiləcək, bərpa ediləcək. Bilirsiniz ki, zəlzələdən dərhal sonra mən Şamaxıya gəldim, vəziyyətlə tanış oldum. Dərhal göstəriş verdim ki, evlər qısa müddət ərzində bərpa edilsin, tikilsin. Bu gün artıq biz ilk evlərin, o cümlədən Saray nənənin evinin açılışını etdik. Bir neçə başqa ev də tikilib. İndi çoxmənzilli yeni binanın təməli qoyulacaqdır. Şamaxı, Ağsu, İsmayıllı rayonlarında minlərlə ev tikiləcək və yenidən bərpa ediləcək. Azərbaycan dövləti hər zaman öz vətəndaşının yanındadır. Bizim sosial siyasətimiz güclü siyasətdir və zəlzələdən ziyan görmüş bütün evlər dövlət vəsaiti hesabına tikiləcək və bərpa ediləcəkdir.

Mənə dünən Ağsu rayonunda, eyni zamanda, bu gün Şamaxı rayonunda məktublar verilib. Bütün məktublara baxılacaq. Burada müxtəlif təkliflər, müxtəlif şikayətlər, xahişlər var. Məhkəmə işləri, evlə, işsizliklə, sosial ədalətsizliklə bağlı məktublar var. Hər bir məktuba diqqətlə baxılacaq. Xahiş edirəm, məktubları mənim köməkçilərimə çatdırın. Mən özüm bunlara baxacağam və lazımi göstərişlər veriləcəkdir. Azərbaycan dövləti öz sosial siyasətini aparmaqda israrlıdır. Vətəndaşları narahat edən bütün məsələlər öz həllini tapacaq. Mən gəlmişəm sizdən bunu eşidim. Bu dəstəyə görə, bu hörmətə görə sizə təşəkkür edirəm, sizi bağrıma basıram. Əmin ola bilərsiniz ki, bütün məsələlər həll olunacaq.

**Rayon ağsaqqalı:** Cənab Prezident, xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Rayon ağsaqqalı:** Siz bütün Azərbaycan xalqının arxası, dayağısınız. Biz şamaxılılar Sizi çox istəyirik.

**Prezident İlham Əliyev:** Mən də sizi çox istəyirəm.

**Rayon ağsaqqalı:** Çox sağ olun. Allah Sizə ömür versin.

**Prezident İlham Əliyev:** İndi də bu ərazidə gözəl çoxmənzilli bir ev tikiləcək.













**Rayon ağsaqqalı:** Gəlib baxmışam, çox iş görmüsünüz.

**Prezident İlham Əliyev:** Sözünüz var mənə?

**Rayon ağsaqqalı:** Mənim sözüm odur ki, sovet hökuməti 70 il çalışdı, şəhərlə kənd arasındakı fərqi aradan qaldırsın. Lakin bunu bacarmadı. Amma Prezident İlham Əliyev cənabları 15 il müddətində bu fərqi götürdü. Bax, Şamaxının başı Dəmirçi, ayağı Quşçu kəndidir.

**Prezident İlham Əliyev:** Dəmirçiyə də yol çəkdik.

**Rayon ağsaqqalı:** Hər ikisinə asfalt yol var.

**Prezident İlham Əliyev:** Lahıca qədər.

**Rayon ağsaqqalı:** Əgər oraya maşın gedirsə, Şamaxının elə bir kəndi yoxdur ki, ora maşın işləməsin. Çox sağ olun.

**Prezident İlham Əliyev:** Düzdür, sağ olun.



**Rayon ağsaqqalı:** Qaz yaxşı, işıq yaxşı, su yaxşı, dolanırıq. Allah ömür versin.

**Prezident İlham Əliyev:** Çalışıram hər şey edim ki, vətəndaşlar daha da yaxşı yaşasınlar. Yol, qaz, işıq, su, iş yerləri. İndi şikayətlər verildi, onlara da baxılacaq. Zəlzələdən ziyan dəymiş evlər yenidən tikiləcək. Cəmi bir ay keçib, artıq bir neçə ev hazırdır, bir neçə evin tikintisi gedir. İndi çoxmənzilli binanın təməli qoyulur. Dağılmış, uçulmuş bütün evlər yenidən tikiləcək. Bəlkə də əvvəlki evlərdən 100 dəfə daha yaxşı olacaq.

**Rayon ağsaqqalı:** Bir söz deyim, Mehriban xanım bizə bir neçə avtobus göndərib. Gecə-gündüz işləyir. İndi Şamaxının bütün kəndlərinə avtobus gedir. Allah işinizi avand eləsin.

**Prezident İlham Əliyev:** Çox sağ ol, ağsaqqal.



❖ ❖ ❖

Dövlət başçısı və birinci xanım sonra zəlzələdən zərərçəkmiş ailələr üçün tikiləcək yeni yaşayış binasının təməlini qoydular. Məlumat verildi ki, 20 Yanvar küçəsində tikilən 44 mənzildən ibarət dördmərtəbəli bina bütün zəruri infrastrukturla təchiz ediləcək, burada birotaqlı 4, ikiotaqlı 32 və üçotaqlı 8 mənzil olacaq.

Prezident İlham Əliyev gilizi bünövrəyə buraxdı, beton qarışığı tökən qurğu işə salındı.

Sonra xatirə şəkli çəkdirildi.

❖ ❖ ❖

Daha sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı” çərçivəsində Şamaxının Şəhriyar qəsəbəsində yeni inşa olunmuş 4 saylı körpələr evi-uşaq bağçasının açılışında iştirak etdilər.

Dövlət başçısı və birinci xanım körpələr evi-uşaq bağçasının rəmzi açılışını bildirən lenti kəsdilər.

Körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanışlıq zamanı məlumat verildi ki, 100 yerlik bu müəssisədə balacalar üçün hərtərəfli şərait var. Şamaxı şəhər 4 və 5 saylı körpələr evi-uşaq bağçaları ötən əsrin 30-40-cı illərində inşa edilmişdi və istismar müddətini başa vurmuş uyğunlaşdırılmış binalarda fəaliyyət göstərirdi. Körpələr evi-uşaq bağçasının tikintisi qısa müddətdə başa çatdırılıb, ikimərtəbəli binada yataq, yemək, istirahət, tibb otaqları, mətbəx və yeməkxana yaradılıb.

Bağçanın ərazisində abadlıq-quruculuq işləri aparılıb, uşaqların əyləncəsi üçün meydança tikilib.

Qeyd edək ki, Heydər Əliyev Fondunun “Məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı” çərçivəsində respublikanın 60 şəhər və rayonunda, ümumilikdə 13 min 625 uşaq yerlik 123 körpələr evi-uşaq bağçasının inşası nəzərdə tutulub və onlardan 80-i artıq istifadəyə verilib.







# “Mən gəlmişəm ki, problemləri həll edim”













Xəbər verildiyi kimi, fevralın 5-də və 6-da baş vermiş zəlzələ Şamaxı, İsmayıllı və Ağsu rayonlarında bir sıra fəsadlar törətmişdi. Dövlət başçısının sərəncam və tapşırıqlarına əsasən təbii fəlakətin törətdiyi fəsadlar aradan qaldırılır.

Sərəncamın icrası ilə əlaqədar görülən işlərlə yerində tanış olmaq üçün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Ağsu rayonunda səfərdə olub. AZƏRTAC səfərdən geniş reportajı təqdim edir.

Qeyd edək ki, fevralın 5-də və 6-da episentri Ağsu və İsmayıllı rayonlarının ərazisində olan zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında fərdi evlər qəzalı vəziyyətə düşmüş, sosial və infrastruktur obyektlərinə ziyan dəymişdi. Təbii fəlakətdən dərhal sonra Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə əsasən görülən təxirəsalınmaz tədbirlər nəticəsində adıçəkilən rayonlarda mühəndis-kommunikasiya təminatı sistemləri tam bərpa edilib, zərər çəkmiş əhaliyə ilkin yardım göstərilib.

Hadisənin səhəri günü dövlət başçısı zəlzələ zonasına gələrək sakinlərlə görüşmüş, təbii fəlakətin törətdiyi fəsadların aradan qaldırılacağını bildirmişdi. Prezident İlham Əliyev elə buradaca əhalinin müraciətlərinə diqqətlə baxılması, evlərə, həmçinin sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün müvafiq icra strukturlarına tapşırıq və göstərişlərini vermişdi. Elə həmin gün dövlət başçısı baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında evlərə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması üçün 2019-cu ilin dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin Ehtiyat Fondundan ilkin olaraq iki milyon manat ayrılması haqqında sərəncam imzalamışdı. Bundan sonra hər 3 rayonda dərhal tikinti və təmir işlərinə başlanmışdı.

Dövlət başçısı Ağsuda zəlzələ nəticəsində zərər çəkən evlərin yerində yenidən tikilməkdə olan evlərlə tanış oldu. Prezident İlham Əliyev Xasayev küçəsinin sakini Gülarə Hökmrəvanın ailəsi üçün tikilməkdə olan yeni evə baxdı, inşaatçılarla söhbət etdi.

**Prezident İlham Əliyev:** Salam, yerli işçi qüvvəsidir?

**Kəmaləddin Heydərov:** Bəli, bunlar hamısı buralıdırlar.

**Prezident İlham Əliyev:** İşlər necə gedir?

**Fəhlələr:** Çox sağ olun. İşlər yaxşı gedir.

**Prezident İlham Əliyev:** Hələ iş çox olacaq, evlər gərək bərpa edilsin. Sizə uğurlar olsun. Sağ olun.

**Fəhlələr:** Sağ olun, Allah Sizdən razı olsun.

Sonra Prezident İlham Əliyev ev sahibinin oğlu Tahir Hökmrəvanla söhbət etdi.

**Tahir Hökmrəvan:** Xoş gəlmisiniz. Sizin gəlişinizi gözləyirdik. Əmin idik ki, gələcəksiniz.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Tahir Hökmrəvan:** Həmişə bizim yanımızdasınız. Bizə, xalqımıza göstərdiyiniz qayğıya görə minnətdarıq. Mən öz adımdan, xəstə anam var, onun adından təşəkkürümüzü bildiririk. Sizə, ailənizə uzun ömür arzulayırıq. Allah Sizi qorusun, başımızın üstündən əskik etməsin. Var olun.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Ananıza da salam söyləyin. Tezliklə sağalsın. Bir aydan sonra ev hazır olacaq. İnşallah, bərabər yaşayacaqsınız. Allah şəfa versin.

**Tahir Hökmrəvan:** Minnətdarıq, çox sağ olun. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Evin tikintisi ilə bağlı hər hansı iradınız varmı?

**Tahir Hökmrəvan:** Xeyr, hər şey qaydasındadır, çox sağ olun.

**Prezident İlham Əliyev:** Yerində yeni möhkəm ev tikilir, heç bir zəlzələ buna təsir edə bilməz.

**Tahir Hökmrəvan:** İnşallah, çox sağ olun. Allah Sizi var eləsin.

**Prezident İlham Əliyev:** Zəlzələ zamanı siz evdə idiniz?

**Tahir Hökmrəvan:** Bəli, evdə idim.

**Prezident İlham Əliyev:** İndi harada yaşayırsınız?

**Tahir Hökmrəvan:** Burada bir bina evi var, oradayıq. Uşaqları aparmışıq oraya.

**Prezident İlham Əliyev:** Söz verirlər ki, bir aydan sonra evin tikintisini başa çatdıracaqlar.

**Fövqəladə hallar naziri Kəmaləddin Heydərov:** Bu ev bir aydan sonra hazır olacaq, bəlkə də tez.

**Tahir Hökmrəvan:** İnşallah. Allah var eləsin. Minnətdarıq.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov dövlət başçısına zəlzələ zonasında görülən işlər barədə məlumat verdi. Bildirildi ki, yaradılmış komissiyalar tərəfindən əhalinin müraciətlərinə əsasən indiyədək Şamaxıda 4893, Ağsuda 1461, İsmayıllıda 919 evə baxış keçirilib. Müəyyən olunub ki, Şamaxıda 244, Ağsuda 150, İsmayıllıda 97 ev kəskin qəzalıdır. Şamaxıda 1111, Ağsuda 265, İsmayıllıda 262 evin bərpa-gücləndirməsinə ehtiyac var. Şamaxıda 1800, Ağsuda 1022, İsmayıllıda 354 evin isə təmirə ehtiyacı var. Bütövlükdə bu rayonlarda 88 ev sökülməyə hazırlanıb, 65 ev sökülüb və sökülməyə başlanıb, həmçinin 38 evin tikintisi aparılır. Ümumiyyətlə, 491 ev qəzalı vəziyyətdədir.

**Prezident İlham Əliyev:** Yəni, hansılar ki, yenidən tikiləcək.

**Kəmaləddin Heydərov:** Bəli. Bunlar artıq sökülüb tikiləcək, 1665 ev bərpa olunacaq.

**Prezident İlham Əliyev:** Bəs qalan müraciətlər?

**Kəmaləddin Heydərov:** İndiyə qədər 7296 müraciət olub, onlardan 7264-nə baxılıb. On altı komissiya işləyir.

**Prezident İlham Əliyev:** Hələ komissiyaların işi davam edir?

**Kəmaləddin Heydərov:** Bəli, komissiyalar işləri davam etdirirlər. Çünki şikayətçilər bəzən deyirlər ki, bizimki bərpa deyil, qəzalıdır.

**Prezident İlham Əliyev:** Komissiya bu işlərə obyektiv baxsın.

**Kəmaləddin Heydərov:** Artıq Şamaxıda 22, İsmayıllıda 10, Ağsuda isə 6 fərdi evin tikintisinə başlanmışdır.

**Prezident İlham Əliyev:** Bunlar kəndlər üzrə evlərin layihələridir?

**Kəmaləddin Heydərov:** Bəli, bunlar kəndlər üzrə dörd, üç və ikiotaqlı evlərin layihələridir.

**Prezident İlham Əliyev:** Yeni evlərin sahəsi əvvəlkilərdən daha böyükdür?

**Kəmaləddin Heydərov:** Əlbəttə, əvvəlki evlərdən daha böyükdür və 9 bal gücündə zəlzələyə hesablanıb.

Prezident İlham Əliyev tikinti-bərpa işlərinin sürətlə və keyfiyyətlə davam etdirilməsi ilə bağlı tapşırıqlarını verdi.

Sonra dövlət başçısı Firdovsi küçəsində Həcər Zamanovanın ailəsi üçün inşa edilən yeni evdə görülən işlərlə tanış oldu. Məlumat verildi ki, dağılmış evin yerində tikilən yeni ev 3 otaqdan ibarət olacaq. Burada normal yaşayış üçün hərtərəfli şərait yaradılacaq.

Dövlət başçısı ev sahibi Həcər Zamanova ilə söhbət etdi.

**Həcər Zamanova:** Sənə qurban olaram, başına dönərəm, xoş gəlmisən.

**Prezident İlham Əliyev:** Xoş gördük. Necəsiniz?

**Həcər Zamanova:** Sağ ol, qurban olum. Allahdan sənə cansağlığı arzulayıram.

**Prezident İlham Əliyev:** Çox sağ olun. İşlər necə gedir?

**Həcər Zamanova:** Hər şey yaxşıdır. Mən sənin yolunu gözləyirdim. Şükür Allaha ki, bu, mənə qismət oldu.

**Prezident İlham Əliyev:** Əlbəttə, mən mütləq gəlməli idim. Gəlmişəm ki, görüm işlər necə gedir.

**Həcər Zamanova:** Sənə qurban olaram. Çox şükür. Televizorda görəndə, deyirdim, ay Allah, kaş Prezidentlə görüşə biləydim.

**Prezident İlham Əliyev:** Evin tikintisi necə gedir, razısınız?

**Həcər Zamanova:** Razıyam. Yerlə göyün arası qədər razıyam.

**Prezident İlham Əliyev:** Ev tamam dağılmışdı?

**Kəmaləddin Heydərov:** Bəli.

**Həcər Zamanova:** Allah-təala, səni Azərbaycanın üstündən əskik etməsin. Siz ki, bizə belə qayğı göstərirsiniz, Allah həmişə bayrağımızı uca etsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun. Ev nə vaxt hazır olacaq?

**Kəmaləddin Heydərov:** Maksimum 1 aya.

**Prezident İlham Əliyev:** İndi siz harada yerləşirsiniz?

**Həcər Zamanova:** Biz kirayə ev tutmuşuq. Müvəqqəti orada yerləşirik.

**Prezident İlham Əliyev:** Bir aydan sonra, inşallah, köçəcəksiniz yeni, gözəl evə.

**Həcər Zamanova:** İnşallah. Allah kölgənizi üstümüzdən əskik etməsin.

**Prezident İlham Əliyev:** Çox sağ olun.

**Həcər Zamanova:** Ağsuda hamı bilir, seyid qızıyam, Quran oxuyanam, namaz qılanam. And olsun o bir Allaha, Sənin rəhmətlik atan dünyadan köçəndən həmişə mən ona dua oxuyur, salavat çevirirəm. Deyirəm ay Allah, o gəlməsəydi, Azərbaycanda bir dənə də olsun cavan qalmazdı. Gəldi müharibəni dayandırdı. Allah-təala qəni-qəni rəhmət etsin. Allah Səni, oğlunu saxlasın.

**Prezident İlham Əliyev:** Sağ olun. Ağsu, Şamaxı, İsmayıllı rayonlarında zəlzələ nəticəsində dağılmış bütün evlər artıq sökülüb və yenidən tikiləcək, o cümlədən sizin eviniz. Yəni, qəzalı vəziyyətdə olan evlər. İndi məlumat verildi, yüzlərlə ev tikiləcək.

**Həcər Zamanova:** Sizə təşəkkür edirəm. Allah Sizə kömək olsun.

**Prezident İlham Əliyev:** Zəlzələdən ziyan çəkmiş bir dənə də təmirsiz ev qalmayacaq. Təmiri mümkün olmayan evlər isə yenidən tikiləcək.

**Həcər Zamanova:** Allahın köməyi ilə, Sizin sayənizdə. Mən Sizə bir kəlmə də söz deyəcəyəm. Nəvəmin 29 yaşı var. Atası da, anası da rəhmətə gedib. Onu mən saxlamışam. İndi onun gözünün biri tamam tutulub. Birində də 3 faiz görmə qalıb. Xəstəxanaya aparıb gətirirəm, ona donor göz lazımdır. Mənim ona gücüm çatmır.

**Prezident İlham Əliyev:** Onu mən tapşıraram Heydər Əliyev Fonduna.

**Həcər Zamanova:** Sənə qurban olaram, həkimlər deyirlər ki, onu təcili etmək lazımdır.

**Prezident İlham Əliyev:** O, buradadır, yoxsa Bakıda?

**Həcər Zamanova:** Burada idi, evimiz uçandan sonra Bakıda olan qızımın yanına göndərmişəm.

**Prezident İlham Əliyev:** Onun əlaqə telefonunu, ad-familiyasını verin.

**Həcər Zamanova:** Zamanov Murad Adil oğlu.

**Prezident İlham Əliyev:** Siz narahat olmayın. Lazım olarsa, biz onu xaricə də göndərərik.

**Həcər Zamanova:** Sənə qurban olaram.

**Prezident İlham Əliyev:** Bizə minlərlə belə müraciətlər olur.

**Həcər Zamanova:** Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Tezliklə ev tikiləcək. Burada rahat yaşayacaqsınız.

**Həcər Zamanova:** Sağ olun, sənə qurban olaram.

**Prezident İlham Əliyev:** Çox sağ ol.

❖ ❖ ❖

Prezident İlham Əliyev Ağsu şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət etdi, önünə gül dəstəsi qoydu.

Daha sonra dövlət başçısı burada rayon sakinləri ilə görüşdü, onların məktublarını qəbul etdi.

**Sakinlər:** Salam, cənab Prezident. Eşq olsun İlham Əliyevə! Xoş gəlmisiniz. Cənab Prezident, ağsulular Sizinlə fəxr edir. Allah ömrünüzü uzun eləsin. Allah Sizi qorusun.

**Prezident İlham Əliyev:** Salam, çox sağ olun. Mən gəlmişəm sizinlə görüşüm. Bütün məktublara baxılacaq.

**Sakinlər:** Sağ olun. Allah razı olsun.

**Prezident İlham Əliyev:** Ağsuda baş vermiş zəlzələ ilə əlaqədar müvafiq göstərişlər verilib. Dağılmış evlərin yerində artıq bu gün yeniləri tikilir. Bütün dağılmış evlər qısa müddət ərzində yenidən tikiləcək, qəzalı evlər əsaslı şəkildə təmir olunacaq. Mən bu gün gəlmişəm ki, işlərə özüm nəzarət edim, müvafiq göstərişlər verim və sizinlə görüşüm. Burada mənə verilən məktubların hər birinə baxılacaq. Narahat olmayın, zəlzələdən uçan bütün evlər yenidən tikiləcək. Mən gəlmişəm ki, problemləri həll edim. Mənim işim sizə xidmət etməkdir. Mən öz vəzifəmi bunda görürəm. Prezident kimi həmişə çalışmışam ki, Azərbaycan xalqına ləyaqətlə xidmət edim. Vətəndaşları narahat edən problemlərin həlli üçün bütün lazımi addımlar atılacaq.

**Sakinlər:** Sağ olun. Allah Sizə cansağlığı versin. Allah işinizi avand eləsin. Sizə minnətdarıq.

# Seneqal Respublikasının Prezidenti zati-aliləri cənab Maki Salla

Hörmətli cənab Prezident!

Seneqal Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Seneqal arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı yolunda birgə səylərimizi bundan sonra da davam etdirəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Seneqal xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Azərbaycan Respublikasının Şamaxı, İsmayıllı və Ağsu rayonlarında baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi məqsədilə **qərara alıram:**

1. Baş vermiş zəlzələlər nəticəsində Şamaxı, İsmayıllı və Ağsu rayonlarında yaşayış evlərinə, sosial və infrastruktur obyektlərinə dəymiş ziyanın aradan qaldırılması işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan cəmi 11,0 (on bir) milyon manat, o cümlədən yaşayış evlərinin, sosial və infrastruktur obyektlərinin tikintisi və onlarda bərpa-gücləndirmə işlərinin davam etdirilməsi üçün Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyinə 5,0 (beş) milyon manat, yaşayış evlərinin təmiri üçün Şamaxı, İsmayıllı və Ağsu rayon icra hakimiyyətlərinin hər birinə 2,0 (iki) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının aşağıdakı hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

polkovnik Muradov İnqilab Heydər oğlu
polkovnik Niftaliyev Səlim Cəfər oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunları hərbi qulluqçularının təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yaradılmasının 27-ci ildönümü ilə əlaqədar olaraq, dövlətin ərazi bütövlüyünün təmin olunmasında iştirak etdiklərinə, döyüş zamanı igidlik göstərdiklərinə, öz xidməti vəzifələrini və hərbi hissə qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə aşağıdakı hərbi qulluqçular təltif edilsinlər:

**"İgidliyə görə" medalı ilə**

Xudiyev Vilayət Yunus oğlu - leytenant (ölümündən sonra)
Qasımov Elşən Oruc oğlu - əsgər (ölümündən sonra)

**"Hərbi xidmətlərə görə" medalı ilə**

Abdullayev Namiq Yədulla oğlu - polkovnik
Bayramov Kamal Damad oğlu - polkovnik-leytenant
Əliyev Yaşad Ayıl oğlu - polkovnik-leytenant
Əsgərov Zöhrab Əvəzağa oğlu - polkovnik-leytenant
Fərəcov Fariz Mirzağa oğlu - polkovnik-leytenant
İbrahimov Əfqan Musa oğlu - polkovnik-leytenant
Məmmədov Emin Arif oğlu - polkovnik-leytenant
Musayev Alışan Həbosət oğlu - tibb xidməti polkovnik-leytenantı
Umudəliyev Vaqif Rəşaiq oğlu - polkovnik-leytenant
Yusubov Natiq Yusif oğlu - polkovnik-leytenant
Rəhimov Zaur Şirinbəy oğlu - mayor
Rizvanov Anar Tofiq oğlu - mayor
Seyidov Orxan Mir Qafar oğlu - kapitan
Rüstəmov Elçin Kərəm oğlu - baş gizir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Mənzil Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 8, maddə 612; 2011, № 12, maddə 1108; 2012, № 6, maddə 501; 2017, № 5, maddə 732, № 7, maddə 1298; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1253-VQD nömrəli Qanunu) 18-ci maddəsinin mətnində "qanunvericilikdə" sözü "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 1 fevral 2019-cu il*

# "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1464-VQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2019-cu il 1 fevral tarixli 1464-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. üç ay müddətində:

1.1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.2. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 401; 2012, № 11, maddə 1086; 2013, № 5, maddə 499; 2015, № 9, maddə 998, № 11, maddə 998; Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 7 noyabr tarixli 330 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "məcəlləsinin" sözündən sonra "18-ci maddəsində," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.1-2-ci bənd əlavə edilsin:

"1.1-2. həmin məcəllənin 18-ci maddəsində "orqan" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Xarici İşlər Nazirliyində Azərbaycan-Rusiya əlaqələri müzakirə olunub

Martın 7-də qarşı tərəfin xahişinə əsasən xarici işlər naziri Elmar Məmmədyarov Rusiya Federasiyasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Mixail Boçarnikov ilə görüşüb.

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ikitərəfli əməkdaşlıq gündəliyinin bir sıra məsələləri, o cümlədən iqtisadi, ticarət, mədəni, humanitar və digər sahələrdə əlaqələrin inkişaf etdirilməsi, eləcə də çoxtərəfli formatlarda uğurlu əməkdaşlığın davam etdirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Səfir M.Boçarnikov öz rəhbərliyinin tapşırığına əsasən, nazir Elmar Məmmədyarovu cari il aprelin 5-də Moskvada keçirilməsi planlaşdırılan MDB üzv dövlətlərinin Xarici İşlər Nazirləri Şurasının növbəti iclasına dəvət edib.

Nazir Elmar Məmmədyarov öz tərəfindən dəvətə görə təşəkkürünü bildirib. Xarici işlər naziri Azərbaycan və Rusiya arasında mövcud əlaqələrin strateji xarakter daşıdığını və RF-nin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi oynadığı rolu vurğulayaraq, cari ilin 5-6 mart tarixlərində Moskvada Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin təmsilçilərinin iştirakı ilə keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun növbəti iclasına RF dövlət rəsmilərinin də qatılmasının Azərbaycan tərəfinin etirazına səbəb olduğunu vurğulayıb. Nazir həmçinin qeyd edib ki, hələ ötən ilin sonunda Yerevanda keçirilmiş sözügedən klubun ilk iclasına qondarma rejim nümayəndələrinin dəvət edilməsi, orada Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə qarşı təxribat xarakterli çıxışların səsləndirilməsi ilə bağlı narazılığımız Rusiya tərəfinə çatdırılıb. Bununla bağlı vurğulanıb ki, bu cür hallar Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin əsaslarını müəyyən edən normativ hüquqi bazaya, habelə Rusiyanın vasitəçi roluna ziddir.

Söhbət əsnasında tərəflər həmçinin bölgədə və dünyada cərəyan edən proseslər və qarşılıqlı olaraq maraq kəsb edən digər məsələlərə dair fikir mübadiləsi aparıblar.

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 25 dekabr tarixli 1760 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 897, № 8, maddə 1690; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 14 yanvar tarixli 470 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun Nizamnaməsi"nin 6.2-ci bəndində "466 000 000 (dörd yüz altmış altı milyon)" sözləri "566 000 000 (beş yüz altmış altı milyon)" sözləri ilə əvəz edilsin.

2. Bu fərmanın 1-ci hissəsinin icrası aşağıdakı maliyyə mənbələri hesabına təmin edilsin:

2.1. "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bir sıra məsələlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 dekabr tarixli 431 nömrəli Fərmanının 1.13.1.2.1-ci yarımbəndinə (Azərbaycan Respublikasında əhalinin mənzilə olan tələbatının ödənilməsi və vətəndaşların güzəştli şərtlərlə mənzil əldə etməsi üzrə tədbirlər) əsasən dövlət büdcəsindən Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fonduna ayrılan vəsaitin 80 milyon manatı hesabına;

2.2. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.81.1-ci yarımbəndinə (Sahibkarlar tərəfindən manatla alınan kreditlərə hesablanmış faizlərə görə subsidiya verilməsi) əsasən müəyyən edilən vəsaitin 20 milyon manatı hesabına.

3. Bu fərmanın 2.1-ci bəndinin icrasını Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, 2.2-ci bəndinin icrasını isə Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondu bir ay müddətində təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Azərbaycan Respublikası Prezidentinin "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli və "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında" 2018-ci il 25 may tarixli 95 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1364-VQD nömrəli Qanununun və "Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyul tarixli 215 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Monitorinqi Xidmətinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 noyabr tarixli 362 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1410-IVQ nömrəli Qanununun tətbiqi və sahibkarlıq sahəsində aparılan yoxlamaların dövlət tənzimlənməsinə dair əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 26 oktyabr tarixli 660 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1132; 2016, № 8, maddə 1384, № 10, maddə 1633; 2017, № 4, maddə 564, № 11, maddə 1997; Azərbaycan Respublikasının 2019-cu il 23 fevral tarixli 548 nömrəli Fərmanı) 1.1-ci bəndinə "bağlı" sözündən sonra "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməsinə nəzarətin həyata keçirilməsi ilə bağlı həmin qanunla müəyyən edilmiş nəzarət orqanları tərəfindən həyata keçirilən" sözləri əlavə edilsin.

2. "Azərbaycan Respublikasının Maliyyə Monitorinqi Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 25 may tarixli 95 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 5, maddə 963) 2-ci hissəsinə "fəaliyyəti əlaqələndirən" sözlərindən sonra ", habelə həmin sahədə siyasətin formalaşmasında iştirak edən" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 mart 2019-cu il*

# Azərbaycan ilə Böyük Britaniya arasında hərbi əməkdaşlıq planı imzalanıb

Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində Azərbaycan Respublikasının və Böyük Britaniyanın Müdafiə nazirlikləri arasında qərargah danışıqları keçirilib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə ölkələrimiz arasında müdafiə sahəsində əməkdaşlığın mövcud vəziyyəti, perspektiv istiqamətləri nəzərdən keçirilib, təlim, təhsil, sülhməramlı əməliyyatlar üzrə əməkdaşlıq, eləcə də regional təhlükəsizlik məsələləri müzakirə olunub.

Danışıqların yekununda "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Birləşmiş Krallığın Müdafiə Nazirliyi arasında 2019-2020-ci maliyyə ili üçün hərbi əməkdaşlıq Planı" imzalanıb.

# Azərbaycanın müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik ilə görüşüb.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# Ədliyyə naziri İmişlidə vətəndaşları qəbul edib

Azərbaycan Prezidenti İlham Əliyevin dövlət qurumları tərəfindən insanlara layiqli xidmət göstərilməsi, vətəndaşların müraciətlərinə qayğı və həssaslıqla yanaşılması barədə tapşırıqlarına uyğun olaraq, Ədliyyə Nazirliyi tərəfindən vətəndaşların bölgələrdə qəbuluna xüsusi diqqət yetirilir. Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin yerlərdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, martın 7-də ədliyyə naziri Fikrət Məmmədov İmişli regional ədliyyə idarəsində İmişli, Sabirabad, Saatlı və digər rayonlardan olan vətəndaşların qəbulunu keçirib.

Qəbul zamanı hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi elə yerindəcə həllini tapıb. Digər müraciətlər üzrə nazirliyin qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını ifadə edərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

# Rəştdə İran Prezidenti Administrasiyasının rəhbəri ilə müzakirələr aparılıb

İran İslam Respublikasına səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti İran Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan və İran prezidentlərinin uğurlu xarici siyasət apararaq regionda dostluğu və mehriban qonşuluğu əsas tutduqları vurğulanıb. Dövlət başçılarının səyləri nəticəsində Azərbaycan və İran beynəlxalq əhəmiyyətli layihələrin reallaşmasında fəal iştirak edirlər.



İqtisadiyyat naziri Şahin Mustafayev son illərdə Azərbaycan və İranın dövlət başçılarının görüşlərini, Prezident İlham Əliyev və İran Prezidenti Həsən Ruhani arasında qarşılıqlı hörmətə və etimada əsaslanan münasibətlərin ölkələrimiz arasında əməkdaşlığın bütün sahələrdə genişləndirilməsində mühüm rolunu vurğulayıb. Nazir "Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi"nin önəmli həlqəsi olan Qəzvin-Rəşt dəmir yolunun açılışını qeyd edərək, bunun Azərbaycan və İran, eləcə də region ölkələri üçün əhəmiyyətini diqqətə çatdırıb. Son zamanlar ölkələrimiz arasında əməkdaşlığın inkişafı istiqamətində bir çox işlərin görüldüyünü qeyd edən İran Prezidenti Administrasiyasının rəhbəri Mahmud Vaezi əlaqələrin inkişafı perspektivlərinə dair fikirlərini bildirib. O, Qəzvin-Rəşt dəmir yolunun və Rəşt-Astara dəmir yolunun tikintisi layihəsinin ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrinin genişlənməsinə mühüm töhfə verəcəyini vurğulayıb.

Görüşdə Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov, nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə, "Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov iştirak ediblər.

# Azərbaycan qadınının cəmiyyətdəki mövqeyi layiqli və möhkəmdir



*Əvvəli 1-ci səh.*

Dövlət başçısı Azərbaycan qadınlarına təbrikində onların bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf etdiklərini bildirib: *"Azərbaycan qadınları maarifpərvər sələflərinin davamçıları olaraq son yüz ildə ölkəmizin xüsusən təhsil, səhiyyə və mədəniyyət sistemlərinin yeni əsaslar üzərində qurulması işində əzmkarlıq göstərmiş və nailiyyətlərlə dolu parlaq bir yol keçmişlər. Onlar müstəqilliyin bərpasından sonra istiqlal ideallarına sədaqətlə milli dövlətçiliyin təməlinin möhkəmləndirilməsi və ölkəmizin hazırkı simasının müəyyənləşməsində mühüm rol oynamış, bu gün də bilik və bacarıqlarını dinamik inkişaf yolunda inamla irəliləyən respublikamızın iqtisadi, mədəni və elmi potensialının artırılmasına sərf edirlər. Yüksək ictimai mövqe və nüfuzları Azərbaycan qadınlarının hüquq və azadlıqlarının tam təmin edilməsinin nəticəsi olub, müasir həyatımızın ən əlamətdar hadisələrindəndir".*

Prezident əmin olduğunu bildirib ki, Azərbaycan xanımları ailə dəyərlərimizin bundan sonra da layiqincə yaşadılmasına çalışacaq, gənc nəslin vətənə, torpağa məhəbbət, müstəqil dövlətçiliyə və azərbaycançılıq məfkurəsinə sədaqət ruhunda tərbiyəsinə böyük diqqət yetirəcək, ölkəmizin davamlı yüksəlişi naminə töhfələrini əsirgəməyəcəklər.

Azərbaycan qadınlarını kişilərlə bərabər cəmiyyətin bütün sahələrində görmək olar. İstər dövlət idarəetməsində, istər seçkili orqanlarda, siyasi-ictimai və sosial-iqtisadi sferalarda qadınlar kişilərdən heç də az fəal deyillər. Hərbçi, polis, sahibkar, idmançı xanımların da sayı az deyil. Bu da ilk növbədə ölkədə həyata keçirilən uğurlu gender siyasətindən xəbər verir.

Azərbaycanda qadın hərəkatından və ümumilikdə qadınların cəmiyyət həyatındakı fəallığından söz açarkən yada düşən ilk nümunə Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyətidir. Azərbaycan qadını üçün səciyyəvi olan humanizm, qayğıkeşlik və insanpərvərlik kimi ali mənəvi keyfiyyətlər Mehriban xanım Əliyevanın şəxsiyyətində daha parlaq təcəssümünü tapır. Ölkəmizin birinci xanımının Heydər Əliyev Fonduna rəhbərliyi, Milli Məclisdə deputat kimi fəaliyyəti bütün yüksək məziyyətləri ilə yanaşı, həm də ölkədəki qadın hərəkatının inkişafına böyük töhfələr verib. Mehriban Əliyeva 2013-cü ildən Yeni Azərbaycan Partiyasının sədr müavini, 2017-ci ilin fevralından isə Azərbaycanın Birinci vitse-prezidentidir. Bu kimi ali postlara təyinat ilk növbədə Azərbaycan qadınına göstərilən yüksək siyasi etimadın göstəricisidir. Bütün bunlar Mehriban Əliyevanın yüksək siyasi potensiala malik olduğunu təsdiqləməklə yanaşı, həm də Azərbaycan qadınının müasir və modern obrazını nümayiş etdirir.

Qadının istər ailədə, istərsə də cəmiyyətdəki layiqli mövqeyi ilk növbədə xalqın yüksək mənəvi keyfiyyətinin, o cümlədən dövlətin inkişafının və xoşbəxt gələcəyinin göstəricisidir. Fərəhli haldır ki, bu deyilənləri Azərbaycan cəmiyyətində görmək mümkündür. Əminliklə deyə bilərik ki, ölkədə həyata keçirilən siyasət və xalqımızın yüksək mənəvi keyfiyyətləri qadınların cəmiyyətdəki layiqli mövqeyini daim qoruyub saxlayacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Dövlət başçısına minnətdarlıq

# Mədəniyyətimizə qayğı həm də milli-mənəvi dəyərlərimizin qorunmasına xidmət edir

*Əvvəli 1-ci səh.*



Cənab Prezidentin görüşdüyü mədəniyyət və incəsənət xadimlərinin arasında mən də var idim. Görüşdən aldığım təəssürat zəngindir. Orada son illər muğamla bağlı keçirilən müsabiqələr haqqında fikrimi bildirdim. Dedim ki, növbəti muğam müsabiqəmiz yaxınlarda başlayacaq. Həddindən çox insan bununla bağlı zəng edib maraqlanır. Müsabiqədə iştirak etmək istəklərini bildirirlər. Çox böyük layihədir. Bu layihənin müəllifi ölkəmizin birinci xanımı Mehriban Əliyevadır. Sağ olsun ki, muğama belə diqqət yetirir. Deməyim odur ki, muğam müsabiqələrinin keçirilməsi bu sənətin inkişafına çox böyük töhfədir. Yəni gənclərin araya-ərsəyə gəlməsi, onların püxtələşib xanəndə kimi formalaşması mühüm məsələdir. Bu yaxınlarda Ağdamda möhtəşəm Muğam Mərkəzi tikildi. Açılışda cənab Prezident, Mehriban xanım da iştirak etdilər. Bu, bir daha göstərir ki, dövlətimiz və onun başçısı milli mədəniyyətimizin inkişafına da böyük qiymət verir.

Onu da deməliyəm ki, dövlətimizin başçısı, eləcə də birinci xanım mədəniyyət və incəsənətimizin inkişafında xidmətləri olan sənətkarların problemləri ilə daim məşğul olublar. Mənim də bir problemim var idi. Mehriban xanım Əliyevanın köməyi ilə aradan qaldırıldı. Buna görə də ona təşəkkürümü bildirirəm.

Cənab Prezidentə xalqımızın xeyir-duası, alqışları tükənməzdir. Məni bir sənət adamı və ağsaqqal kimi dövlət başçısı tərəfindən bütün sahələr üzrə qəbul edilən fərman və sərəncamlar çox sevindirir. Bu, mədəniyyət və incəsənətə çox böyük xidmətdir.

***Arif BABAYEV,***
***xalq artisti***

# Sosialyönümlü islahatlar bölgələrdə xoş ovqat yaradıb

Dövlət başçısının uğurla reallaşdırdığı müdrik siyasətin məntiqi nəticəsi olaraq Azərbaycan iqtisadiyyatı dinamik şəkildə inkişaf edir. Güclü iqtisadiyyat, artan dövlət büdcəsi genişmiqyaslı sosial islahatlar layihəsini həyata keçirmək imkanı yaradır. Ölkə rəhbərinin böyük sosial qayğı paketi bu cəbhə bölgəsinin əhalisində yüksək əhvali-ruhiyyə doğurmuşdur. Ağdam rayonunda kiminlə görüşdüksə, kimin fikrini soruşduqsa, dövlət başçısına minnətdarlığını eşitdik, məmnunluq duyduq.

**İmamqulubəyli kənd sakini Məryəm CƏFƏROVA, iki şəhid anası:**

- Qarabağ müharibəsində iki oğul itirmişəm. Analar üçün ən ağır dərd övlad itkisidir. Təskinliyi onda tapıram ki, oğullarım vətən uğrunda şəhid olublar. Prezident İlham Əliyevin qayğısı bizi xeyli yüngülləşdirir. Rayonumuza gələndə mənimlə də görüşdü. Təsəlli verib, qayğılarımla maraqlandı. Dedim, şükür Allaha, yaxşı dolanırıq. Çox israr elədi ki, bəlkə bir ehtiyacınız var, utanma, de. Oğul, heç nəyə ehtiyacım yoxdur, - dedim. Heç gözləmədiyim halda dedi ki, axı mən nəsə etməliyəm. Sizə yeni qəsəbədə üçotaqlı mənzil verirəm. Onun səmimiyyəti, doğmalığı, qayğıkeşliyi elə bil çiyinlərimdən ağır yük götürdü. İndi eşitmişəm ki, şəhid ailələrinə verilən pulu da artırıblar. Prezident daim şəhid ailələrini diqqətdən kənar qoymur. İstəyir ki, yaxşı yaşasınlar. Gərək biz də onun qədrini bilək. O, yaxşı rəhbərdi, həmişə xalqı düşünür. Xalq da onu çox istəyir. Allah onu qorusun. Gücü, qüdrəti artıq olsun ki, Qarabağımızı işğaldan azad edib məcburu köçkünləri doğma yurdlarına qaytara bilsin.

**Rayon Ağsaqqallar Şurasının sədri, Sosialist Əməyi Qəhrəmanı Sədrəddin ƏLƏSGƏROV:**

- Prezident İlham Əliyev bütün mənalı həyatını müstəqil Azərbaycan dövlətinin qorunmasına, xalqımızın xoşbəxt və firavan yaşamasına həsr etmiş dahi Heydər Əliyevin oğludur. Onun ürəyində doğma xalqına məhəbbət çox böyükdür. Aztəminatlı ailələrin, qaçqın və məcburi köçkünlərin, müharibə veteranlarının, şəhid ailələrinin, tələbələrin sosial müdafiəsini gücləndirmək üçün bir-birinin ardınca imzaladığı sərəncamlar Ağdamda hər evdə, hər ailədə gerçək bir bayram əhvali-ruhiyyəsi yaradıb. Prezidentin qayğısından pensiyaçılara da yetərincə pay düşür. Minimum pensiyanın 38,5 faiz artırılması bizlərə böyük maddi köməkdir. Sağ olsun dövlət başçısını ki, bizləri unutmur. Ağdam ağsaqqalları bu qayğıya görə Prezident İlham Əliyevə hədsiz dərəcədə minnətdardılar.

**18 saylı Quzanlı qəsəbə məktəbinin müəllimi Rahim MƏMMƏDOV:**

- Biz məcburi köçkünlər dövlətin qayğısını hər zaman hiss edirik. Ölkəmizin iqtisadi gücü, qüdrəti artdıqca bizə göstərilən qayğı və diqqət də artır. Bu qayğının ən bariz nümunəsi Ağdam rayonu ərazisində 18 yeni yaşayış qəsəbəsinin inşa olunmasıdır. Bu qəsəbələrin hər birində məktəblər, tibb məntəqələri, klublar, digər sosial obyektlər var. Fasiləsiz təbii qaz, su və elektrik enerjisi ilə təmin olunuruq. Bizdə xoş ovqat yaradan, məmnunluq doğuran əsas cəhətlərdən biri də odur ki, bu qayğı davamlı xarakter almışdır. İndi hamı Prezident İlham Əliyevin son bir ayda imzaladığı sosialyönümlü sərəncam və fərmanlardan minnətdarlıqla danışır. Dövlət başçısının imzaladığı sərəncama uyğun olaraq məcburi köçkünlərin aylıq müavinətləri də aprel ayının 1-dən 50 faiz artırılacaq. Bu da onların ailə büdcəsinə əhəmiyyətli təsir göstərəcək. Minlərlə məcburi köçkün ailəsi bu qayğıya görə dövlət başçısına minnətdardır.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

# *Hikmət HACIYEV:* "Nikol Paşinyanın Ermənistan-Azərbaycan münaqişəsi barədə iddiaları danışıqların mahiyyətinə və formatına ziddir"

Ermənistanın baş naziri Nikol Paşinyanın Brüsseldə dərc olunan EURACTIV portalına müsahibəsinə cavab olaraq həmin portalda Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin məqaləsi verilib. Məqalədə Hikmət Hacıyev Ermənistanın baş naziri Nikol Paşinyanın martın 4-də EURACTIV portalına müsahibəsini, xüsusilə onun Ermənistan-Azərbaycan münaqişəsi barədə iddialarını ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə aparılan danışıqların mahiyyətinə və formatına köklü şəkildə zidd olduğunu bildirib. AZƏRTAC məqaləni təqdim edir.




Prezident İlham Əliyev ilə Nikol Paşinyan arasında keçən ilin sentyabrında Düşənbədə baş tutmuş görüşdən etibarən Azərbaycan danışıqlar prosesinin irəli aparılması üçün əlverişli mühitin yaradılması məqsədilə konstruktiv və cəsarətli addımlar atıb. MDB-nin Sankt-Peterburqda keçirilmiş qeyri-rəsmi sammiti və Davosda Azərbaycan və Ermənistan rəhbərliyi arasında daha iki görüş olub. Amma Ermənistan rəhbərliyi indi bunları görüş belə adlandırmaqdan çəkinir və qeyri-rəsmi təmaslar adlandıraraq metaforik illüstrasiyaya üstünlük verir.

Bu ümidverici dinamika ATƏT-in Minsk qrupunun həmsədrlərinin vasitəçiliyi ilə Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin dörd görüşü ilə müşayiət olunub. Amma həmsədrlərin və beynəlxalq ictimaiyyətin iki ölkə arasında substantiv və nəticəyönümlü intensiv danışıqların davam etdirilməsinə dair nikbinliyinə müsbət şəkildə cavab vermək əvəzinə Ermənistanın baş naziri Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin danışıqlara cəlb edilməsi ilə bağlı qeyri-real iddialar irəli sürməyə başlayıb. Bu düşüncə ilə Ermənistan tərəfi məqsədyönlü şəkildə bütün danışıqlar prosesini əngəlləyir və iflic halına salır.

Ermənistan baş naziri Qarabağda yaşayan ermənilər adından danışa bilmədiyini iddia edərək çox sadə bir suala cavab verə bilmir: Ermənistan silahlı qüvvələrinin Azərbaycanın suveren ərazilərində nə işi var?

Beynəlxalq ictimaiyyətə çox yaxşı bəllidir ki, Ermənistan BMT Nizamnaməsini kobud şəkildə pozaraq qanunsuz şəkildə gücdən istifadə etməklə Azərbaycanın Dağlıq Qarabağ və ətraf yeddi rayonunu işğal edib. Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə bir milyondan çox mülki Azərbaycan əhalisinə qarşı qanlı etnik təmizləmə aparılıb. Onlar hələ də məcburi köçkün və qaçqın statusunda yaşamaq məcburiyyətindədir.

Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı hərbi təcavüzdə birbaşa iştirakı və Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə mövcudluğu münaqişə tərəfi kimi Ermənistanın hüquqi, siyasi və mənəvi məsuliyyətini təsbit edir. Söz güləşdirməklə Ermənistan hökuməti bu mütləq məsuliyyətdən qaça bilməz.

İşğalçı dövlətlər adətən digər dövlətin ərazisini zor yolu ilə işğalında öz rollarını gizlətmək üçün işğal olunmuş ərazilərdə qanunsuz rejimlər yaradırlar. Qondarma "Dağlıq Qarabağ respublikası" bu kimi siyasətin və təcrübənin bariz nümunəsidir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Çıraqov Ermənistana qarşı" işi üzrə qəbul etdiyi qərarda Ermənistanın öz məsuliyyətini davamlı şəkildə inkarına əsaslı olaraq son qoydu. AİHM təsbit etdi ki, "qondarma "DQR" və onun administrasiyası Ermənistanın hərbi, siyasi, maliyyə və digər dəstəyi hesabına mövcuddur və Ermənistan Dağlıq Qarabağ və ətraf ərazilər üzərində nəzarəti həyata keçirir".

Bu günlərdə N.Paşinyan hökumətinin üzvü və dövlət təhlükəsizlik xidmətinin sədri məskunlaşdırma siyasətinə bəraət qazandıraraq və işğal olunmuş ərazilərin bir qarışının belə qaytarılmayacağını iddia edərək Ermənistanın zəbt olunmuş ərazilərin anneksiyası siyasətini yürütdüyünü təsdiq etmiş oldu.

N.Paşinyanın müsahibəsində başqa bir uyğunsuzluq da var. Müsahibədə o, BMT Baş katibinin münaqişə ilə bağlı açıqlamasını alqışladığı halda, BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı dörd qətnaməsinin üzərindən sükutla keçir. Ermənistan BMT TŞ-nin qətnamələrinin işğalçı qüvvələrin bütün işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılması barədə tələblərini hələ də yerinə yetirməyib.

Paradoksal olaraq Ermənistan rəhbərliyi bir tərəfdən ATƏT-in Minsk qrupunun həmsədrlərinin səylərinə dəstək ifadə edir, digər tərəfdən isə danışıqlar formatının dəyişdirilməsinə çağıraraq həmsədrlərinin işini pozur.

ATƏT-in Minsk qrupu prosesi çərçivəsində təsbit olunmuş institusional yaddaş vardır. ATƏT-in 1992-ci il Helsinki nazirlər iclasının qərarına görə Ermənistan və Azərbaycan münaqişə tərəfləri, Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı və erməni icmaları isə maraqlı tərəflər kimi müəyyən olunub. Dağlıq Qarabağın azərbaycanlı icmasına qarşı qanlı etnik təmizləmə törədildiyi halda, Ermənistanın Dağlıq Qarabağın erməni icmasına eksklüziv hüquqlar tələb etməsi barədə əsassız iddiaları insan hüquqlarının ruhuna və fəlsəfəsinə ziddir. Ermənistan həmçinin sayı 80 min nəfərdən artıq olan Dağlıq Qarabağın azərbaycanlı icmasının mövcudluğunu belə inkar etməyə çalışır və hər bir vəchlə iki icma arasında dialoqu bloklayır.

Azərbaycan Avropa İttifaqının yüksək vəzifəli rəsmi şəxslərinin N.Paşinyan ilə mətbuat konfransında səsləndirdiyi bəyanatlarını dəstəkləyir. İşğala əsaslanan status-kvo qəbuledilməzdir və dəyişdirilməlidir. Danışıqlara qeyd-şərtin qoyulması yolverilməzdir, yeni formatın yaradılmasına ehtiyac yoxdur və danışıqlar razılaşdırılmış düstura uyğun olaraq mövcud format əsasında davam etdirilməlidir. Danışıqların davamlılığı və danışıqlara öhdəlik təmin olunmalıdır. Bu mövqeyi beynəlxalq birlik də yekdilliklə bölüşür. Ona görə də beynəlxalq ictimaiyyət tərəfindən Ermənistana ünvanlı siyasi-diplomatik ismarıclar çatdırılmalıdır. Ermənistan tərəfi nəhayət anlamalıdır ki, eyforiya dövrü başa çatıb. Küçə populizminə son qoyulmasının və ciddi addımların atılmasının vaxtıdır.

Biz, eyni zamanda, Avropa İttifaqının sifarişi ilə hazırlanan və münaqişənin həllinin Ermənistana və Azərbaycana iqtisadi dividendləri barədə hesabatın ideya və fəlsəfəsini dəstəkləyirik. Ermənistan-Azərbaycan münaqişəsi həll edilmədən Ermənistanın iqtisadi inkişafı qeyri-mümkündür.

Münaqişənin həllində irəliləyişə nail olmaq üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarmalı və qonşularla sivil münasibətlər qurmalıdır. Yalnız bu halda regionun çox ehtiyac duyduğu davamlı və ədalətli sülh təmin oluna bilər. Əks-təqdirdə Ermənistanın siyasi, iqtisadi və demoqrafik böhranı və özünütəcridi dərinləşməkdə davam edəcək.

# Dünya Xəbər Agentlikləri Konqresi Şurasının Sofiyada keçirilən iclasında VI Konqresə son hazırlıq məsələləri müzakirə olunub

Martın 7-də Bolqarıstanın BTA agentliyinin təşkilatçılığı ilə Sofiyada Dünya Xəbər Agentlikləri Konqresi Şurasının növbəti iclası olub. İclasda Dünya Xəbər Agentliklərinin 2019-cu ildə Sofiya şəhərində keçiriləcək VI Konqresinə son hazırlıq məsələləri müzakirə edilib, təşkilati işlərə baxılıb.

İclasda Dünya Xəbər Agentlikləri Konqresinə sədrlik edən AZƏRTAC, Böyük Britaniyanın Press Association, Rusiyanın TASS, Bolqarıstanın BTA, Küveytin KUNA agentliklərinin rəhbərləri və nümayəndələri, həmçinin Ərəb Xəbər Agentlikləri Federasiyasının (FANA) və Avropa Xəbər Agentlikləri Alyansının (EANA) baş katibləri iştirak ediblər. Almaniyanın Dpa agentliyinin prezidenti, EANA-nın prezidenti Piter Kropş və Associated Press agentliyinin nümayəndəsi Anna Conson tədbirə videokonfrans vasitəsilə qoşulublar.

AZƏRTAC-ın İdarə Heyətinin sədri, Dünya Xəbər Agentlikləri Konqresinin prezidenti Aslan Aslanov iclasda çıxış edib, təşkilatın təkmilləşdirilməsi, İcraiyyə Komitəsinin fəaliyyətinin genişləndirilməsi, saytının funksionallığının artırılması, nizamnaməsində dəyişikliklər olunması, BMT-də qeydiyyatdan keçirilməsi ilə bağlı təklif və mülahizələrini diqqətə çatdırıb. Qeyd edilib ki, təşkilat üzv agentliklər arasında əlaqələrin daha da möhkəmləndirilməsi istiqamətində fəaliyyətini gücləndirməlidir. AZƏRTAC-ın İdarə Heyətinin sədri, həmçinin Dünya Xəbər Agentliklərinin VI Konqresinin təşkili, 2022-ci ildə VII Konqresə evsahibliyi etmək istəyən ölkələrin namizədliyi ilə bağlı məsələlərə toxunub. Bildirib ki, VII Konqresə evsahibliyi edəcək ölkəni seçmək üçün namizədlər Sofiya Konqresində təqdimatla çıxış etməli və yalnız bundan sonra onların namizədliyi səsə qoyularaq müəyyənləşdirilməlidir. Eyni zamanda, təşkilata üzv agentliklərdən üzvlük haqları toplanaraq fond yaradılmasının və yığılmış vəsaitdən ciddi dəstəyə ehtiyacı olan agentliklərə yardım göstərilməsinin zəruriliyi vurğulanıb.

Aslan Aslanov Dünya Xəbər Agentliklərinin Heydər Əliyev Fondu və AZƏRTAC-ın birgə təşkilatçılığı ilə Bakıda keçirilən V Konqresinin yaxşı təcrübə platformasına çevrildiyini diqqətə çatdırıb, gələcək tədbirlərə evsahibliyi etmək istəyən ölkələrə bu təcrübədən faydalanmağı tövsiyə edib. Şura üzvləri bu təklifləri razılıqla qarşılayıb və yüksək qiymətləndiriblər. İclasda Şuranın sədri Klayv Marşal, BTA-nın baş direktoru Maksim Minçev, TASS-ın baş direktorunun müavini Mixail Qusman, FANA-nın baş katibi Fərid Əyyar və başqaları VI Konqreslə bağlı fikirlərini bölüşüb, tədbir çərçivəsində keçiriləcək sessiya və panellərdə müzakirə ediləcək məsələlər və dinləniləcək məruzələr barədə rəy və təkliflərini bildiriblər.

Xatırladaq ki, Dünya Xəbər Agentliklərinin 5-ci Konqresi 2016-cı il noyabrın 16-17-də Bakıda keçirilib. Hazırda AZƏRTAC Dünya Xəbər Agentlikləri Konqresinin sədridir. 2019-cu ildə sədrlik AZƏRTAC-dan Bolqarıstanın BTA agentliyinə keçəcək.

# Məktəbə qəbul prosesində yeniliklər var

## 6 yaşı tamam olan, 8 yaşdan yuxarı, habelə xüsusi qayğıya ehtiyacı olan uşaqlar da elektron qaydada I sinfə qəbul ediləcəklər

Artıq 5 ilə yaxındır ki, şagirdlərin məktəbə qəbul prosesi elektron qaydada həyata keçirilir. Və bu proses ilbəil daha da təkmilləşdirilir, yeni hədəflərə çatmaq üçün ardıcıl işlər görülür. Qarşıda qoyulan əsas məqsəd də artıq bütün rayonlarda bu işin elektron qaydada həyata keçirilməsidir.
Bəs bu il bizi hansı yeniliklər gözləyir? Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) müdir müavini İlhamə Abdullayeva bu sualı ətraflı cavablandırıb.

### Birinci sinfə elektron qəbulun əhatəsi genişləndirilib

Onun sözlərinə görə, bu il birinci sinfə elektron qəbulun əhatəsi genişləndirilib. Belə ki, Bakı, Sumqayıt, Gəncə və Abşeronla yanaşı, Mingəçevir, Şirvan, Naftalan, Yevlax və Samux rayonlarında I sinfə qəbul elektron qaydada həyata keçiriləcək.

Bu işdə qarşıya qoyulan əsas məqsəd vətəndaş əlçatanlığının, məmnunluğunun təmin olunmasıdır.

### Birinci sinfə qəbul nə vaxt başlayacaq?

İlhamə Abdullayeva qeyd edib ki, birinci sinfə qəbul martın 13-də saat 10:00-da başlayacaq. Bu il həmçinin məktəbəhazırlıq qruplarında təhsil alan uşaqlar üçün martın 11-dən avtomatik elektron sorğu yaradılması təmin ediləcək.

Belə ki, məktəbəhazırlıq qruplarında oxuyan uşaqların şəxsi kabinetləri artıq avtomatik yaradılacaq. Həmin uşaqların valideynlərinə ayın 11-dən etibarən SMS şəklində bildiriş gələcək ki, övladı hansı məktəbdə və hansı müəllimin sinfində təhsil alacaq. O valideynlər də martın 11-12 tarixlərində şəxsi kabinetə daxil olaraq sadəcə ərizəni çap edəcəklər və qeyd edilən məktəbə təqdim edəcəklər.

Əgər valideyn edilən seçimlə razı olmazsa, o halda martın 13-dən sistemə daxil olaraq sorğunu silib, qeydiyyatda olduğu ərazi üzrə başqa məktəb, müəllim seçimi edə bilər.

### Qeydiyyatda olduğu ərazidə yerləşməyən məktəbə gedənlər üçün yenilik

Bu il həm də Bakıda qeydiyyatda olduğu ərazidə deyil, başqa ərazidəki məktəbə övladlarını 1-ci sinfə qoymaq istəyən valideynlər üçün yenilik tətbiq edilib.

İlhamə Abdullayevanın sözlərinə görə, əvvəlki illərdə valideynlər yaşamadıqları ərazilərdə yerləşən məktəbləri istəyirdilər və bunun üçün hətta Təhsil Nazirliyinə bununla bağlı müraciət edib göstərirdilər ki, hansı məktəbdə oxutdurmaq istəyirlər. Bu çətinliyi aradan qaldırmaq üçün "mektebeqebul.edu.az" saytında "gözləmə siyahısı" yaradılıb. Valideyn qeydiyyatda olmadığı ərazi üzrə məktəb seçirsə, bu halda üç üstünlük hüququ verilir. Həmin məktəbə yaxın ərazidə yaşamalıdır, uşaqlarından biri o məktəbdə oxumalıdır və valideynlərdən biri həmin təhsil müəssisəsində işləməlidir. Bu üstünlüklər yoxdursa, onda həmin valideyn gözləmə siyahısına düşür, həmin məktəbdə yeni yer açılan kimi bu siyahıda adı olan ilk şəxsə bildiriş gedir və o uşağın həmin məktəbə qəbulu təmin edilir.

### Bəzi məktəblərə müsabiqə yolu ilə qəbul keçiriləcək

Bakıda 3 təhsil müəssisəsi - Avropa Liseyi, Respublika İncəsənət Gimnaziyası və Bülbül adına orta ixtisas məktəbi istisna olmaqla, məktəbin yerləşdiyi ərazi üzrə qeydiyyatda olan bütün uşaqlar üçün qalan lisey və gimnaziyalara birinci sinfə şagird qəbulu müsabiqəsiz aparılacaq.

Təhsil idarəsinin nümayəndəsinin sözlərinə görə, uşaq lisey və gimnaziyaların olduğu ərazi üzrə yaşamırsa (rəsmi qeydiyyatla), onda onun lisey və gimnaziyalara 1-ci sinfə qəbulu müsahibə ilə aparılacaq. Müsahibədən keçən uşaq lisey və gimnaziyaya daxil olmuş hesab ediləcək.

İlhamə Abdullayeva deyib ki, lisey və gimnaziyalara sənəd qəbulu martın 13-dən başlayacaq və elektron qaydada aparılacaq: "Valideynlər elektron ərizələrində yalnız 1 lisey adını qeyd edə bilərlər. Liseyə qəbul olunmayan uşaqların adi ümumtəhsil müəssisəsinə qəbulu üçün yenidən sistemə müraciət edilə bilər".

### 50 alternativ qeydiyyat mərkəzi yaradılıb

Bu təqvim ili ərzində 6 yaşı tamam olan, 8 yaşdan yuxarı, habelə xüsusi qayğıya ehtiyacı olan uşaqlar da elektron qaydada birinci sinfə qəbul ediləcəklər.

İlhamə Abdullayeva deyib ki, 8 yaşdan yuxarı olan uşaqların valideynləri elektron qeydiyyatdan keçdikdən sonra müvafiq rayon təhsil şöbələrinə müraciət edib övladlarını məktəblərə yerləşdirə biləcəklər.

Həmçinin Bakı, Sumqayıt, Gəncə, Abşeron, Mingəçevir, Şirvan, Naftalan, Yevlax və Samuxda yaşayan məcburi köçkünlərin övladları da elektron sistem vasitəsilə birinci sinfə qəbul oluna biləcəklər.

Bu işdə valideynlər üçün bütün imkanlar yaradılıb. Onlara kömək məqsədilə Bakı üzrə 50 alternativ qeydiyyat mərkəzi yaradılıb.

***Fərizə ƏHMƏDOVA,***
***"Azərbaycan"***

# Dövlətin sosial siyasətində qadının, ananın öz yeri var



Azərbaycanda əhalinin yarıdan çoxu - 50,1 faizi qadınlardan ibarətdir. Ölkənin sosial-iqtisadi həyatının elə bir sahəsi yoxdur ki, orada qadınlar fəal iştirak etməsin. Başqa sözlə, onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,2 faiz təşkil edir.

Qadınların sosial qayğıları, o cümlədən məşğulluq problemlərinin həlli dövlətin daim diqqət mərkəzindədir. Hazırda Azərbaycanda müəllimlərin, həkimlərin, elmi işçilərin sırasında qadınların sayı üstünlük təşkil edir. Onların ən çox çalışdığı sahələrdən biri kənd təsərrüfatıdır. Bu baxımdan son illərdə Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar, o cümlədən unudulmuş ənənəvi kənd təsərrüfatı sahələrinin bərpa edilməsi, keçmiş şöhrətinin qaytarılması böyük əhəmiyyət daşıyır. Belə ki, əvvəlcə pambıqçılığın inkişafına geniş meydan açıldı. Ardınca üzümçülüyün, tütünçülüyün, baramaçılığın, çayçılığın, bağçılıq-meyvəçiliyin və s. dirçəldilməsi gündəmə gətirildi.

Bu, sıradan bir tədbir deyil. Çünki insanları yurd-yuvasına, Azərbaycan kəndlisini torpağına, Azərbaycan ailəsini ev-eşiyinə bağlayır. Təsadüfi deyil ki, son illərdə ölkədə miqrasiyanın saldosu müsbət olaraq qalır. Vaxtilə iş, dolanışıq axtarışınca yad məmləkətə gedənlər geriyə dönürlər.

Görülən tədbirlər bəhrəsini verir. Bütün bu işlərin çoxsaylı müsbət nəticələrindən biri kənddə yaşayan insanların, o cümlədən qadınların məşğulluq probleminin həlli məsələsidir. Bu gün ailənin başçısı da, xanımı da öz evindədir və hər ikisinin iş yeri var. Başqa sözlə desək, Azərbaycan qadını digər ölkələrə iş dalınca gedən ərinin nə vaxt evə pul göndərəcəyini gözləmir, yaxud özü də həyat yoldaşı ilə Rusiyaya, Ukraynaya, Qazaxıstana, Türkiyəyə getmək məcburiyyətində qalmır.

Bu gün kəndli qızlar şəhərə gəlib özlərinə iş axtarmaq fikrinə düşmürlər. Torpağa bağlı olan, bağ-bostan becərən kənd qadını dolanmaq üçün çıxış yolunu qutab bişirib satmaqda, xırdavat alveri etməkdə görmür.

Pambıq tarlası, üzüm bağı, tütün plantasiyası yenidən əmək meydanına, çörək teknəsinə çevrilib. Məhz bu səbəbdən də dövlət başçısı bölgələrdə olarkən qadınlar onlar üçün belə bir şəraitin yaradıldığına görə məmnunluqlarını bildirir, minnətdarlıqlarını söyləyirlər. Prezident İlham Əliyev Saatlıda pambıqçılıqla bağlı zona müşavirəsi keçirərkən rayonun Qıraqlı kənd sakini, fermer Humay Məmmədova "Pambıqçılığı bizə qaytardığınız üçün çox sevinirik" deyə həmyerlilərinin hamısının fikrini ifadə etmişdir.

Kənd təsərrüfatı sahələrinin dirçəldilməsi sayəsində Zaqatalanın gül becərən qızlarının da əlləri çörəyə çatdı.

"AzRose" MMC-nin işçisi İlhamə Mehdiyeva bildirmişdir ki, burada onlarca əməkçi özünün məşğulluq problemini həll edib. Onların əksəriyyəti Zaqatalanın kəndlərində yaşayan qadınlardır. Hamısı da yaxşı iş şəraiti ilə, yüksək əməkhaqqı ilə təmin olunub.

Bundan əlavə, rayonda tütün emalı və fındıq zavodları fəaliyyətə başlayıb, gül becərilən sahələr salınıb. Burada da rayonun müxtəlif kəndlərindən olan qız-gəlinlər çalışır və onların da sosial təminatları yaxşılaşır.

Azərbaycanın cənub zonasında çayçı qızlar sevimli plantasiyalarına qayıdıblar. Astarada "Astaraçay", Lənkəranda "Yaşıl çay" MMC-lərin zümrüd plantasiyaları yenidən onları öz qoynuna səsləyib. Burada da onlarca qadın və qız öz məşğulluq problemini həll edib.

Xalçaçılığın ölkə sənayesində əhəmiyyətli yer alması qadınların işləməsi üçün yeni imkanlar yaradıb. "Azərxalça" ASC-nin istifadəyə verilən filiallarında yüzlərlə qadın işlə təmin olunub. Onlar toxuduqları xalçalarla həm qədim el sənətini yaşadır, həm öz dolanışıqlarını təmin edir, həm də Azərbaycan məhsulunun ixrac potensialını artırırlar.

İndiyədək Horadiz, Şəmkir, Quba, Xaçmaz, İsmayıllı, Lənkəran və Ağdamda təzə xalça müəssisələri istifadəyə verilib.

Füzuli rayonunun Horadiz şəhərində və Ağdam rayonunun Quzanlı qəsəbəsində "Azərxalça"nın müəssisələrinin açılması xüsusi əhəmiyyət daşıyır. Bu müəssisələrin məhsulları sırasında əsasən Ağdam, Bərdə, Beyləqan, Cəbrayıl, Füzuli, Kəlbəcər, Qubadlı, Xocalı, Laçın, Şuşa və Zəngilan rayonlarının kəndlərində toxunan tarixi və orijinal Qarabağ xalça çeşniləri üstünlük təşkil edir. İşçilərin əksəriyyəti məcburi köçkün olan qadınlardır.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrasının yekunlarına həsr olunan konfransda Prezident İlham Əliyev demişdir: "Biz son vaxtlar ənənəvi xalçaçılıq sənətinin inkişafı ilə bağlı çox ciddi iş aparırıq. Artıq 20 xalça fabriki fəaliyyətdədir. Hər fabrikdə orta hesabla 100, yaxud 150 iş yeri yaradılır, xüsusilə qadınlar üçün. Mən fabriklərin əksəriyyətinin açılışlarında iştirak etmişəm və görmüşəm ki, buna nə qədər böyük ehtiyac var. Bu, qadınları işlə təmin etmək, qədim milli sənətimizi yaşatmaq üçün çox düşünülmüş bir addımdır. Bütövlükdə isə bizdə 31 xalça fabrikinin tikilməsi nəzərdə tutulur və burada təqribən 5 minə yaxın iş yeri açılacaq".

Xalçaçılıq inkişaf etdikcə yeni köməkçi müəssisələrin, məsələn, iplik və hazır tekstil, yunəyirici-boyaq fabriklərinin, yun və boyaq bitkilərinin tədarükü məntəqələrinin fəaliyyətə başlamasına da ehtiyac yaranır. Bu müəssisələrin istifadəyə verilməsi nəticəsində qadınlar üçün çoxsaylı iş yerləri də açılacaq.

Dövlətin daim diqqət mərkəzində saxladığı ən mühüm məsələlərdən biri də qadınların sağlamlığının qorunmasıdır. Hazırda ölkədə 17 doğum evi, 130 qadın məsləhətxanası, 248 uşaq poliklinikası və ambulatoriyası qadınların sağlamlığının keşiyində dayanıb.

Bu və bir çox digər faktlar təsdiqləyir ki, dövlətin sosial siyasətində qadınların öz yeri var. Dövlət başçısının son aylarda imzaladığı bir sıra sənədlər buna aydın misaldır. Məsələn, Prezidentin 25 fevral 2019-cu il tarixli "Əhalinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində əlavə tədbirlər haqqında" sərəncamında uşağın anadan olmasına görə sosial müavinətin məbləğinin 200 manata çatdırıldığı bildirilir. Sərəncamda çoxuşaqlı analar da unudulmayıb. 5-dən çox uşağı olan qadınlara sosial müavinətin məbləğinin hər uşaq üçün 55 manata çatdırılması nəzərdə tutulub.

Qoy hər bir qadına analıq səadəti qismət olsun. Hər bir qızın, qadının üzü gülsün. Evlərdə sağlamlıq, firavanlıq, xoşbəxtlik hökm sürsün. Dövlətimizin məqsədi də elə budur!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mədəniyyət cəfakeşi

Dünənki bürküdən sonra istinin şaxı sınmışdı. Şimaldan əsən həzin yel ağacların budaqlarını oynadır, yarpaqlara sığal çəkirdi. Həşim Bağdakı gülləri suvardı, pətəkləri gözdən keçirdi. Evə qayıdanda qızı Dilarəni eyvanda dayanan gördü.



- Ata, mən hazıram, - deyə qız gülümsədi.

Kənddən iki kilometr aralıdakı Vizəzəmin orta məktəbinə yola düşdülər. Onları müəllimlər qarşıladılar. Həşimi ilk övladının məktəbə gəlməsi münasibətilə təbrik elədilər. Dilarənin təhsil illəri belə başlandı. Yuxarı siniflərdə oxuyanda məktəb kitabxanasındakı bədii əsərlərin çoxunu mütaliə eləmişdi. Kənd kitabxanasının da fəal oxucusu idi. Atası onun mütaliəyə marağına sevinir, şəhərə yolu düşəndə kitab mağazalarına baş çəkir, yeni əsərlər alıb gətirirdi.

1976-cı ildə Dilarə Fətullayeva orta məktəbi bitirdi. Təhsilini davam etdirmək üçün Bakı Kitabxanaçılıq Texnikumunu seçdi. Texnikumda da müvəffəqiyyətlə oxudu, fərqlənmə diplomu ilə kəndə döndü. Lerik Rayon Mədəniyyət Şöbəsində ixtisası üzrə işlə təmin olundu. İki il sonra sənədlərini Azərbaycan Dövlət İncəsənət İnstitutuna verdi. Qəbul imtahanlarından yüksək bal topladı, mədəni-maarif fakültəsinin qiyabi şöbəsində adı tələbələr siyahısına yazıldı.

Dilarə Fətullayevanın vəzifəsi bir pillə yuxarı qaldırıldı, mərkəzi kitabxanaya biblioqraf təyin edildi. İlk əmək fəaliyyətinə başlayan kitabxanaçılara məsləhət verir, əməli kömək göstərirdi. Seminarlarda oxucularla işin təşkili, kənddə kitabın təbliği barədə tövsiyələri, yeni nəşrlər barədə məlumatları maraqla dinlənilirdi.

Rayonda tarix-diyarşünaslıq muzeyinin açılması Dilarəni də sevindirdi. O, bir müddət bu mədəniyyət ocağında baş mühafiz işlədi. Eksponatların toplanmasında fəallığı ilə seçildi. Muzey əşyalarının qorunub saxlanılması, öyrənilməsi, təbliğ olunması missiyasını yerinə yetirdi.

1971-ci ildə diyarşünaslıq muzeyinin uzunömürlülər filialına təyin edildi. Filialın eksponatları darısqal binada yerləşsə də, rayon mərkəzinə güzarı düşən qonaqların və turistlərin diqqətini çəkdi. Uzunömürlülərin həyat tərzi ilə tanış olmağa maraqlar artdı, əməkdaşların məlumatlarından faydalanıb razı getdilər.

2010-cu ilin yayında Lerikin mədəni həyatında yaddaqalan hadisə baş verdi. Dövlət başçısı İlham Əliyev Uzunömürlülər Muzeyinin açılışında iştirak edib xeyir-duasını verdi, eksponatlarla tanış oldu. Ötən il oktyabr ayının 15-də Prezident Lerikdə olarkən bu hadisəni bir daha xatırladı: "Lerikdə Uzunömürlülər Muzeyi də var. Mən səfərlərimin birində muzeylə tanış olmuşam".

Muzeyin birinci salonundayıq. Şüşənin altındakı Barzavu kəndinin 168 yaşlı sakini Şirəli Müslümova 1937-ci ildə verilmiş pasport diqqətimizi cəlb edir. Pasportdakı 1805 rəqəmi çox aydın görünür, onun doğum tarixidir. Şirəli babaya Vyetnam Respublikasının Prezidenti Xo Şı Minin avtoqrafla göndərdiyi şəkil, haqqında yazılan kitablar, qəzet və jurnal məqalələri, məktublar da tamaşaçıda maraq doğurur.

"Mahmud Eyvazovun adı dünyanın bir çox ölkələrində hörmət və ehtiramla çəkilib, 150 il yaşayıb, xeyirxah işlər görüb. Bağ salıb, qoyun-quzu otarıb, kəndə su çəkdirib. Zəhməti orden və medallara layiq görülüb, haqqında film çəkilib", - deyə Dilarə xanım bizi ekran qarşısına dəvət edir. Moskva kinematoqrafçılarının 60 il öncə lentə aldıqları film muzeyə hədiyyə verilib. Rus və bolqar dillərində çap olunmuş "Onun 150 yaşı var", yazıcı Məmmədhüseyn Əliyevin "Dağlar oğlu" romanı da eksponatlar arasındadır.

136 il ömür sürmüş Məcid Ağayev, 120 yaşında haqq dünyasına qovuşmuş Nəni Əhmədova haqqında Dilarə xanımın salonda etdiyi söhbət ovqatımızı təzələyir. Onların şüşə qutularda saxlanan canamazlarını, möhürlərini, təsbehlərini göstərib deyir ki, sovet hökuməti dövründə ağsaqqallarımız, ağbirçəklərimiz əqidəsindən dönməmişlər. Namaz qılmış, oruc tutmuş, adət-ənənələrimizə sadiq qalmışlar.

Başqa bir salonda folklor guşəsi yaradılmışdır. Uzunömürlülərin yaddaşlarında qalan bayatılar, mahnılar, rəvayətlər əməkdaşlar tərəfindən qələmə alınmış, meydan oyunları lentə köçürülmüşdür. Burada uzunömürlülərin əl işləri, geyimləri, qədim əkin və biçin alətləri nümayiş etdirilir. Ağsaqqalların əlindən çıxan cəhrə və beşiklər, ağbirçəklərin toxuduqları tirmə corablar, yun köynəklər xarici turistləri heyran qoyur.

Bir neçə il öncə Fransa milli fotoqraflar qrupunun üzvü Frederik Laşor Lerikin kəndlərini gəzmiş, çəkdiyi şəkillərdən ibarət "Uzunömürlülər diyarına səyahət" adlı fotosərgi hazırlamışdır. Fotosərgi Parisdə və Bakıda nümayiş etdirilmişdir. Fransanın ölkəmizdəki səfiri xanımı ilə Lerikə gəlmiş, 40 şəkildən ibarət albomu muzeyə bağışlamışdır.

Dilarə xanım bizə bir kitab göstərdi. Muzeydə olan qonaqlar, xarici ölkələrdən gələn turistlər təəssüratlarını yazıblar. Livanlı turist Aleksey Lotuna yazır: "Uzun və mənalı ömür sürmək xoşbəxtlikdir. Bu torpağa ayaq basdığıma görə xoşbəxt qoca olacağıma əminəm". Koreya vətəndaşı David Chotun təəssüratı: "Lerikə gələndən sonra mən də 100 il yaşamaq iddiasındayam. Bilmirəm gücüm çatar, ya yox. Buranın təbiətinə, adamlarına vuruldum".

Ötən il muzeyə 1900 nəfər tamaşaçı gəlmiş, burada bir neçə tədbir keçirilmişdir. Eksponatların sayı 1300-ə çatdırılmışdır.

Dilarə Fətullayeva rayonda yaşayan 110 uzunömürlü barədə məlumat toplamışdır. O, bayramlarda, ad günlərində ağsaqqallarla, ağbirçəklərlə görüşür, onların mənzil-məişət şəraiti ilə maraqlanır, ehtiyacları barədə təşkilatlara məlumat verir. Muzey işçiləri Novruz bayramı ərəfəsində Racı İbrahimovanın 105 illik, Ağabəyim Polad qızının və Tuğra Rəsul qızının 100 illik yubileylərini qeyd etməyə hazırlaşırlar.

Dilarə Lerik şəhərində tanınmış Həşimovlar ailəsinin gəlinidir. Həyat yoldaşı Etibar Vahid oğlu təcrübəli təbibdir, əməkdar həkimdir. Onlar iki övlad böyüdüblər. Oğlu Nizami Türkiyədə təhsil alır, atasının peşəsini seçib, bu il universiteti bitirəcək.

Dilarə xanım fəal ictimaiyyətçi qadındır. Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqları rayon komitəsinin sədridir. Rayon Ağsaqqallar Şurası idarə heyətinin üzvüdür. Uzun illər səmərəli fəaliyyətinə görə 2018-ci ilin mart ayında Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Bu yaxınlarda mədəniyyət işçiləri onu 60 illik yubileyi münasibətilə təbrik etmişlər. Ölkəmizin müxtəlif guşələrindən peşə dostlarından, tanışlardan məktub və teleqramlar almışdır. Biz də bu təbrikə qoşuluruq.

***Həmzə VƏLİMƏMMƏDOV,***
***əməkdar jurnalist***

# Sumqayıtda qadınlar bayramının keçirilməsinin maraqlı tarixi var

Yaranışının 70 ilini arxada qoyan Sumqayıt bu gün inkişafının yüksək mərhələsini yaşayır. 1949-cu ildə sənaye şəhəri statusunu alan, hazırda bu şərəfli adı layiqincə daşıyan Sumqayıt həyata keçirilən layihələr əsasında Cənubi Qafqazın iri sənaye potensialına malik ikinci şəhəridir.



Bu gün Cənubi Qafqazın nəhəng sənaye mərkəzi olan Sumqayıt İkinci Dünya müharibəsindən sonra yaradıldı. Hələ müharibədən əvvəl yeni şəhərin salınacağı ideyası vardı. Lakin müharibə bu təqvimi bir neçə il gecikdirdi.

Boz çöllərdə, çirkab sularının axıdıldığı ərazidə salınan Sumqayıt sovet dönəminin simvol şəhərlərindən biri idi. Həmin illərdə keçmiş Sovetlər birliyində eyni vaxtda bir neçə şəhərin yaradılmasına qərar verilmişdi. İndiki Sumqayıtın ərazisində yeni şəhərin salınması haqqında qərar qəbul edildikdən sonra buraya hər tərəfdən axın başladı. SSRİ-nin müttəfiq respublikalarından da xeyli adam işləmək üçün Sumqayıta üz tutdu. Hətta həmin dövrdə böyük amnistiya edildi. Həbsdən buraxılanların da bir hissəsi Sumqayıta işləməyə gəldi. Az müddətdə şəhərin müxtəlif istiqamətlərində yeni gələnlərin yaşaması üçün baraklar salınmağa başlandı. İşləməyə gələnlərin içərisində qadınlar da var idi. İndiki şəhərin ondabir hissəsini əhatə edən Sumqayıtda tikinti işləri sürətlə aparılırdı. Zavodlar tikilir, küçələr salınırdı.

Şəhərin elə ərazisi yox idi ki, orada iş getməsin. Sanki insanlar daha yaxşı çalışmaq, uğurlar əldə etmək üçün yarışa girmişdilər. Millətindən, yaşından asılı olmayaraq insanlar Sumqayıta doğma şəhərləri kimi bağlanırdılar.

70 illik ömür yolu keçən Sumqayıtın salınmasında qadınların da əvəzsiz rolu oldu. Sovetlər İttifaqının müxtəlif şəhərlərindən Sumqayıta gələn qızların çoxu burada işləməklə yanaşı, ailə qurur və "sumqayıtlı" statuslu yeni şəhərin sakinlərinə çevrilirdilər. Tikinti işlərinin geniş vüsət aldığı şəhərdə tədbirlərin çoxu "ixtisara" düşmüş, ya da yaddan çıxmışdı. Yalnız yeni ildə iki gün bayrama görə istirahət verirdilər. Həmin günlərdə işçilərin çoxu çalışırdı ki, yaxınlıqda yaşayan qohumlarını ziyarət etsin. Sovetlər birliyinin müxtəlif şəhərlərindən gələnlər isə yataqxanaların qarşısında toplaşır, mahnı oxuyub, rəqs edirdilər.

Sumqayıtda 8 mart Beynəlxalq Qadınlar Gününün keçirilməsinin qəribə tarixi var. Sovetlər birliyində həmin bayram 1965-ci ildən qeyd edilirdi. Hamının başı tikintiyə qarışdığından bayramlar unudulmuşdu. Burada rus, latış və başqa dildə danışan insanlara rast gəlinirdi. Yaşayış şəraitinn çətinliyi hamını işlə məşğul olmağa vadar edirdi.

1966-cı il martın 1-də şəhər partiya komitəsi tikinti təşkilatlarına göstəriş verdi ki, işdə fəallıq göstərən qızların adlarını yazıb rəhbərliyə bildirsinlər. Səhərisi gün həmin qadınlarla söhbətlər aparılır və məlum olur ki, onların çoxu bu bayramla bağlı məlumatsızdır.

Bundan sonra 8 mart bayramının keçirilməsini təmin etmək üçün təşkilat komitəsi yaradılır. Komitənin üzvləri, əsasən, rus və digər miillətlərdən təşkil edilir. Onların arasında bir nəfər azərbaycanlı Gülbahar Vəliyeva da vardı. Martın 7-də 22 nəfər qadının adı təsdiqlənərək partiya komitəsinə göndərilir.

1966-cı il martın 7-dən bütün yataqxanalarda istirahət guşələri bəzədilməyə başlanır. Trestin rəhbəri Zülfi Hacıyev təşkilat komitəsini bayramın keçirilməsi üçün lazım olan hər şeylə təmin edir və ilk dəfə həmin gün istirahət günü kimi əmrləşdirilir. Yerli radio ilə bu xəbər bütün yataqxanalara çatdırılır.

Səhər şəhər rəhbərliyinin yerləşdiyi binada keçirilən iclasda dünyada qeyd edilən bu bayramın əhəmiyyətindən danışılır. 8 mart bayramının Sumqayıtda keçirilən ilk tədbirində birinci fəxri fərman isə Gülbahara verilir.

Həmin gün şəhərin hər yerində bayram əhvali-ruhiyyəsi yaşanır. Tikilməkdə olan zavodlarda, yeni salınan qəsəbələrdə xüsusi səhnələr quraşdırılır. Musiqi sədaları bütün şəhəri bürüyür. Onu da bildirək ki, musiqiçilərin də, ifaçıların da çoxu həvəskarlar olur.

Şəhərdə ilk dəfə qeyd edilən 8 mart - Beynəlxalq Qadınlar Günü şahidlərinin yaddaşında xatirəyə çevrilir.

53 il öncə keçirilən bu bayram keçmiş SSRİ-də qeyd edilən birinci bayramlardandır. Çünki digər respublikaların bir çoxunda 8 mart qadınlar bayramı ötən əsrin 70-ci illərindən qeyd edilməyə başlanır. Sumqayıtda isə 53 il əvvəl bu bayram keçirilməyə başlanıldı. Bütün bunlar qurub-yaradan zəhmətkeş insanların duyğularının bir parçası idi. Qadınlara aid edilən bu gün onların yaddaşında əbədi iz saldı.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycan qadınları statistikada

Dövlət Statistika Komitəsinin məlumatına görə, bu il yanvarın əvvəlinə ölkə əhalisinin ümumi sayının 50,1 faizi və ya 4 milyon 999,1 min nəfəri qadınlardan ibarət olmuşdur. Ötən il doğulmuş 139,0 min körpənin 46,6 faizini qız uşaqları təşkil etmişdir. Qadınların 53,4 faizi nəsilvermə qabiliyyətinə malikdir.

Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 80,1 faizi, orta ixtisas təhsil müəssisələrində 78,9 faizi, ali təhsil müəssisələrində 52 faizi, həkimlərin isə 62 faizi qadınlardır. Ümumi təhsil müəssisələrində şagirdlərin 46,9 faizi, orta ixtisas təhsil müəssisələrində oxuyanların 65,7 faizi, ali təhsil müəssisələrinin tələbələrinin 48,2 faizi qızlardır.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 58,1 faizini qadınlar təşkil edir. Son 5 ildə həm elmlər doktoru, həm də fəlsəfə doktoru elmi dərəcəsi olan qadınların sayı 1,3 dəfə artmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 9-u, müxbir üzvlərindən isə 12-si qadındır.

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi, ilkin məlumatlara əsasən, 28,6, sahibkarlar arasında isə 21,5 faizdir. Bədən tərbiyəsi və idmanla məşğul olanların 42 faizi qadınlardır.

Milli Məclisdə qadın deputatların sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün qadın deputatların xüsusi çəkisi 16,8 faizə çatmışdır.

İlk bələdiyyə seçkilərinə nisbətən son bələdiyyə seçkilərində bələdiyyə üzvü seçilmiş qadınların sayı 6 dəfə artaraq 5236 nəfərə çatmışdır. Beləliklə, bələdiyyə üzvləri arasında onların xüsusi çəkisi 35 faiz olmuşdur. Xatırladaq ki, bu göstərici ilk bələdiyyə seçkilərində 4 faiz təşkil etmişdi.

Diqqəti cəlb edən faktlardan biri də nəqliyyat vasitələrinin idarə olunması üçün sürücülük vəsiqəsi alan qadınların sayının ildən-ilə artmasıdır. Belə ki, sürücülük vəsiqəsi alanların ümumi sayında qadınların xüsusi çəkisi 2008-ci ildə 4,6 faiz olduğu halda, 2018-ci ildə 7,4 faizə çatmışdır.

Beləliklə, Azərbaycan qadınları ölkənin həm sosial-iqtisadi, həm də ictimai-siyasi həyatında fəal iştirak edirlər.

***"Azərbaycan"***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir.**

**LOT 1:** 5 km TSV-100x2x0,5 kabelinin, 1500 km PKSV-1x2x0,5 naqilinin satın alınması

**İştirak haqqı: 600 (altı yüz) manat**

**LOT 2:** 520 (beş yüz iyirmi) ədəd müxtəlif güclü kondisionerlərin satın alınması

**İştirak haqqı: 1500 (bir min beş yüz) manat**

**LOT 3:** 3000 ədəd daxili qurğu ilə xarici antena tipli LTE modemlərinin satın alınması

**İştirak haqqı: 2000 (iki min) manat**

Tenderdə yerli və xarici hüquqi şəxslər iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 (əlaqələndirici şəxs: Faiq Mustafayev, tel.: 012 344-00-00 (372); e-mail: faiq.mustafayev@aztelekom.az ünvanından əldə edə bilərlər.

**Müəssisənin adı: "Aztelekom" Məhdud Məsuliyyətli Cəmiyyəti**
**Hesab nömrəsi: AZ62AZPO 91015461200420100166**
**Müəssisənin VÖEN-i: 9900038501**
**Ünvan: AZ1122, Bakı şəhəri, Tbilisi prospekti -187**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq salahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır. Xarici ölkələrdən olan iddiaçılar isə təmsil olunduqları dövlətin dilində hazırladıqları mətnlə birlikdə həmin mətnin Azərbaycan dilinə tərcümə olunmuş, müvafiq qaydada leqallaşdırılmış və ya apostil olunmuş və notarial qaydada təsdiq edilmiş nüsxəsini mütləq əlavə etməlidirlər. Mətnlər arasında fərq aşkar edilərsə, üstünlük Azərbaycan dilində tərtib edilmiş mətnə veriləcəkdir.

İddiaçılar tender təkliflərini 2 (iki) nüsxədə (əsli və surəti) təqdim etməlidirlər. İddiaçıların təkliflərinin əsli və surəti arasında fərqlər olduqda üstünlük "Əsli" sözü yazılmış nüsxəyə veriləcəkdir.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **22 aprel 2019-cu il tarixinə qədər (saat 17:00-dək)**, tender təklifini və tender təklifinin bank təminatını isə **30 aprel 2019-cu il tarixinə qədər (saat 17:00-dək)** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanına ("Aztelekom" MMC-nin Tender komissiyasına) təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **01 may 2019-cu il tarixdə (saat 11:00-da)** Bakı şəhəri, Yasamal rayonu, Tbilisi prospekti, 187 ünvanında - "Aztelekom" MMC-nin inzibati binasında açılacaqdır.

Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## Cəmiyyətin mənəvi dayaqları

Sumqayıt şəhərindəki 28 May Mədəniyyət Evində Qubadlı Rayon İcra Hakimiyyəti 8 mart Beynəlxalq Qadınlar Gününə həsr edilən tədbir keçirib.

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Xoşqədəm Alıyeva bildirib ki, mürəkkəb və keşməkeşli həyat yolu keçmiş, tarixin sınaqlarından alnıaçıq, üzüağ çıxmış Azərbaycan qadını cəmiyyətin bərabərhüquqlu üzvüdür. Xalqımızın mənəvi dəyərlərinin qorunmasında onların müstəsna rolu var. Qubadlı qadınlarının dövlətə və dövlətçiliyə göstərdikləri xidmətlər Prezident tərəfindən yüksək qiymətləndirilib və onların 4 nəfəri əməkdar müəllim fəxri adı alıb, 4 nəfər "Tərəqqi" medalı ilə təltif olunub.

Rayon icra hakimiyyətinin başçısı Malik İsaqov vurğulayıb ki, bu gün qadınlarımız ölkənin ictimai, sosial-iqtisadi, mədəni və mənəvi həyatında etimadı layiqincə doğruldurlar. Onlar ölkə daxilində və beynəlxalq aləmdə böyük nailiyyətlər qazanır, ictimai həyatın bütün sahələrində öz sözlərini inamla deyirlər.

Bildirildi ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətini xüsusi qeyd etmək lazımdır. Xalqımızın mənəvi dəyərlərinin öyrənilməsi və qorunmasında Mehriban xanım Əliyevanın fəaliyyətini qadınlarımız örnək kimi qəbul edirlər.

Sonra rayonun ictimai-siyasi həyatında fəal iştirak edən bir qrup qadına hədiyyələr təqdim olunub.

Tədbir konsert proqramı ilə davam etdirilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Holcim (Azərbaycan) ASC səhmdarlarının nəzərinə

Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının İllik Ümumi Yığıncağı 2019-cu il aprel ayının 24-də səhər saat 10:00-da Bakı şəhəri, AZ 1065, İzmir küçəsi, 1033 ünvanında yerləşən "Hyatt Regency" Hotelin Görüş və Konfrans Mərkəzində yerləşən Quba zalında keçiriləcəkdir.

**Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının 24 aprel 2019-cu il tarixdə keçiriləcək səhmdarların İllik Ümumi Yığıncağının gündəliyi:**

1. Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyəti Səhmdarlarının İllik Ümumi Yığıncağının sədrinin seçilməsi.
2. Müşahidə Şurasının üzvlüyündə dəyişikliklərin təsdiq edilməsi.
3. Təftiş Komissiyasında dəyişikliklərin təsdiq edilməsi.
4. Holcim (Azərbaycan) Açıq Səhmdar Cəmiyyətinin 2018-ci ilin maliyyə nəticələrinə dair illik hesabatının təsdiq edilməsi.

## B İ L D İ R İ Ş

### Gəncə şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyi 2019-cu ildə görüləcək işlərin satın alınması ilə əlaqədar təkliflər sorğusu elan edir

1. Əmək alətləri və xüsusi geyim formalarının satın alınması

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 13 mart 2019-cu il Gəncə şəhər Mənzil-Kommunal Təsərrüfatı İstehsalat Birliyində qəbul edilir.

**Ünvan: Gəncə şəhəri, Mir Cəlal Paşayev, 57.**
**Əlaqələndirici şəxs: Tofiq Quliyev, telefon: 022 253-92-22.**

***Tender komissiyası***

## Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Göyçay Rayon Mərkəzi Xəstəxanası 2019-cu ildə aşağıda adları göstərilən malların (iş və xidmətlərin) satın alınması məqsədilə

### *kotirovkalar sorğusu elan edir*

1. 221320 Cari təmir
2. 282230 Əsaslı təmir
3. 225411 İnventarın alınması
4. 225412 Avadanlıqların alınması
5. 311220 Digər maşın və avadanlıqlar
6. 221100 Dəftərxana və təsərrüfat xərcləri
7. 221200 Mətbəə xərcləri
8. 221310 İdarənin digər xərcləri
9. 223200 Digər nəqliyyat xidməti
10. 224400 İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi
11. 224700 Kommunikasiya xidmətləri ilə bağlı digər xərclər
12. 225200 Yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin alınması
13. 274830 Digər müavinət və transferlər

Maraqlananlar Göyçay rayonu, Nizami, 183 ünvanına müraciət edə bilərlər.

***Əlaqələndirici şəxs: Tahir Əzizov***
***Əlaqə telefonu: 0-20-27-4-18-40***

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Fransa həbsxanalarının əməkdaşları müddətsiz tətilə başladılar



Fransada 20-yə yaxın həbsxananın əməkdaşları müddətsiz tətil elan etmişlər. Bu barədə "Frans Press" agentliyi xəbər verir.

Nəzarətçilər və mühafizəçilər həbsxanaya gedən yolları bağlayaraq tonqal yandırırlar. Onlar iş şəraitinə yenidən baxmağı, əməkhaqlarını artırmağı və təhlükəsizliyi gücləndirməyi tələb edirlər. Son vaxtlar həbsxana əməkdaşlarına hücumların sayı artmışdır. Məsələn, bu günlərdə 30 il iş almış məhbus iki mühafizəçini ağır yaralamışdır. Sonradan məlum olmuşdur ki, ona bıçağı hamilə həyat yoldaşı ötürmüşdü. Qadın həbsxanaya daxil olarkən onu yoxlamamışdılar.

## Argentinada müəllimlər maaşlarının artırılmasını tələb edirlər



Argentinada müəllimlərin üçgünlük tətili üzündən yeni təhsil ili gələn həftə başlayacaq. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Məlumata görə, ölkədə müəllimlər işə çıxmayaraq əməkhaqqının artırılmasını tələb edirlər. Müəllimlərin Həmkarlar İttifaqının nümayəndəsi Eduardo Lopes bildirmişdir ki, "biz dərslərimizə küçələrdə başlayırıq və layiqli əməkhaqqı tələb edirik".

Qeyd edək ki, ötən il Argentinada inflyasiya və böhran ucbatından qiymətlər 47 faiz artmışdır. Gözlənildiyinə görə, cari ildə inflyasiyanın səviyyəsi 30 faizdən yüksək olacaq.

## İnsan orqanlarının qanunsuz dövriyyəsi 600 milyon dollardır



İnsan orqanları ilə bağlı qanunsuz sövdələşmələrin həcmi ildə təxminən 600 milyon dollar təşkil edir. Bu barədə BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin məlumatına istinadən Qvatemalanın "Diario de Centro America" qəzeti xəbər verir.

Beynəlxalq təşkilatın əməkdaşları bu statistik məlumatı insan və insan orqanları alveri problemləri üzrə Qvatemalada keçirilən regional konqresdə açıqlamışlar. Görüşlərin yekunlarına görə, insan orqanları alverinin qarşısını almaq üçün tədbirlər görmək planlaşdırılır. Region ölkələrinin hökumətləri bu istiqamətdə birgə fəaliyyət barədə razılığa gəlmişdir. Konqresdə Qvatemala ilə yanaşı, Honduras, Dominika Respublikası, Kosta-Rika, Meksika və Salvador iştirak edir.

Qeyd olunur ki, Qvatemala coğrafi mövqeyi və iqtisadi vəziyyəti ilə əlaqədar insan alveri üzrə beynəlxalq cinayətkar şəbəkələrin aktiv fəaliyyət göstərdiyi ölkədir.

## Dünyanın ən varlı qadını bəlli oldu



"Forbes" jurnalı "L'Oreal" şirkətinin varisi Fransuaza Bettankur Mayersi dünyanın ən varlı qadını adlandırmışdır. Məlumata görə, Bettankur Mayersin varidatı 49,3 milyard dollardır. O, kosmetika şirkətinin gəlirlərinin artması sayəsində son bir il ərzində daha 7,1 milyard dollar varlanmışdır.

Bettankur Mayers 1997-ci ildən "L'Oreal"ın başçısı və Direktorlar Şurasının üzvüdür. Sahibkar qadın və onun ailəsi hazırda şirkətin səhmlərinin 33 faizinə malikdirlər. Fransuaza ötən il anası Lilian Bettankur vəfat etdikdən sonra dünyanın ən varlı qadınları siyahısında yer almışdır.

Bu siyahıda ikinci yeri "Walmart" şirkətinin təsisçisinin qızı Elis Uolton tutur. Üçüncü yerdə ABŞ-ın "Mars" qənnadı şirkətinin təsisçisinin nəvəsi Jaklin Marsdır.

Fransuaza Bettankur Mayers dünyanın ən varlı adamları siyahısında 15-ci yeri tutur.

## Tunisdə fövqəladə vəziyyət rejiminin müddəti uzadıldı



Tunis prezidenti Beci Qaid Sebsi terror aktlarının qarşısını almaq məqsədilə dörd il əvvəl ölkədə tətbiq olunmuş fövqəladə vəziyyət rejiminin müddətinin uzadıldığını elan etmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Fövqəladə vəziyyət rejimi prezident hökumətin başçısı və parlamentin sədri ilə təhlükəsizlik sahəsində vəziyyətlə bağlı məsləhətləşmələr apardıqdan sonra bir ay müddətinə uzadılmışdır.

Xatırladaq ki, Tunisdə fövqəladə vəziyyət 2015-ci ildə Sus əyalətinin Kəntavi kurort şəhərində baş vermiş terror aktından sonra tətbiq edilmişdir. Hadisə zamanı 40 nəfər həlak olmuşdur.

## Bavariyada 6,5 min il yaşı olan skelet tapılıb

Arxeoloqlar Almaniyanın Bavariya federal bölgəsində neolit dövründə yaşamış gənc insanın yaxşı qalmış skeletini tapıblar.

Alimlərin Fred adlandırdığı skeletin yanında, həmçinin daş balta və dənli bitkinin toxumu aşkarlanıb. Skeletin yaxşı vəziyyətdə qalması torpaqda kalsium oksidinin yüksək konsentrasiyada olması ilə izah edilir. Qazıntılar çaxır istehsalı kooperativinin ərazidə obyekt tikintisi ilə bağlı planları çərçivəsində aparılıb. Arxeoloqlar bu məqsədlə 13 min kvadratmetr ərazini tədqiq ediblər. Qazıntıların aparıldığı rayonda saxsı qablar və qida qalıqları aşkarlanıb. Burada 4,5 min il bundan öncə yaşamış 12 yaşlı oğlan uşağının skeleti də tapılıb.



Bavariya Almaniyanın arxeoloji tapıntıların dövlətə deyil, torpaq sahiblərinin mülkiyyətinə verilən yeganə federal torpağıdır.

## Azərbaycan XİN "Lazarev klubu"nun Moskvada keçirilən ikinci iclasına münasibət bildirib

KİV-in yaydığı məlumata əsasən, cari ilin martın 5-6-da Moskvada Rusiya-Ermənistan "Lazarev klubu"nun ikinci iclası keçirilib. Orada tədbir iştirakçılarına Rusiya Federasiyası Prezidentinin salamlama müraciətini çatdıran RF Prezidentinin müşaviri S.Qlazyevin, habelə Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitəsi sədrinin birinci müavini K.Zatulinin timsalında RF-nin icra və qanunverici hakimiyyətinin rəsmi nümayəndələri iştirak ediblər.

AZƏRTAC xəbər verir ki, Xarici İşlər Nazirliyinin mətbuat xidməti Moskvada keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun ikinci iclası ilə bağlı açıqlama yayıb.

Açıqlamada deyilir: "Xatırlatmaq istərdik ki, adı yuxarıda çəkilən klubun ilk iclasına Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərində yaradılmış separatçı rejimin nümayəndələrinin dəvət olunması, eləcə də həmin ilk iclas çərçivəsində səsləndirilmiş Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə açıq şəkildə qəsd edən ifadələrlə əlaqədar Azərbaycan Respublikasının XİN-i Rusiya Federasiyasının XİN-ə öz narazılığı və hiddətini bildirdi.

"Lazarev klubu"nun ikinci iclası ərəfəsində KİV müxbirinin indiki iclasa da Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal olunmuş ərazilərindəki qondarma rejimin liderlərinin dəvət edilməsinə dair RF XİN-in mövqeyi barədə sualına Rusiya XİN-in rəsmi sözçüsü tərəfindən qeyd edildi ki, burada söhbət vətəndaş cəmiyyəti və qeyri-hökumət qurumlarının tədbirindən gedir, RF dövlət orqanları nümayəndələrinin bu tədbirdə iştirakına dair məlumat yoxdur. Eyni zamanda, onun tərəfindən deyildi ki, RF ATƏT-in Minsk qrupunun həmsədri olaraq üzərinə götürdüyü bütün öhdəlikləri ni yerinə yetirir.

Bununla bağlı Rusiya tərəfinin diqqətinə çatdırırıq ki, cari ilin 5 mart tarixindəki sözügedən iclasda Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələri ilə yanaşı, Rusiya dövlət orqanlarının yüksək vəzifəli rəsmilərinin də iştirakına dair konkret məlumatın mövcud olduğu bir halda, bu, ATƏT-in Minsk qrupu həmsədrlərinin mandatı ilə müəyyən edilmiş həmsədr ölkəsinin öhdəlikləri ilə kəskin şəkildə ziddiyyət təşkil edir. Qeyd etdiyimiz mandatda aydın şəkildə göstərilir ki, "həmsədrlər öz fəaliyyətində ATƏT-in prinsip və normaları, BMT Nizamnaməsi, 1992-ci il 24 mart tarixli Nazirlər Şurasının qərarı daxil olmaqla, ATƏT forumlarının qərarları və o cümlədən Budapeşt sammitinin qərarı, həmçinin BMT-nin Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini rəhbər tutacaqlar".

Növbəti dəfə Rusiya tərəfini ikitərəfli münasibətlər çərçivəsində üzərinə götürdüyü öhdəliklərin, o cümlədən 1997-ci ildə bağlanmış Azərbaycan Respublikası və Rusiya Federasiyası arasında dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə müddəalarının əməl olunmasını təmin etməyə çağırırıq. Məlum olduğu kimi, həmin müqavilədə xüsusilə təsbit edildi ki, "Tərəflər separatçı hərəkatları dəstəkləməməyi öhdələrinə götürür və digər tərəfin dövlət suverenliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qarşı yönəldilmiş ayrı-ayrı şəxslərin fəaliyyətini qadağan edir və qarşısını alır".

## Beyləqanda 20 min 560 nəfər sakin tibbi müayinə olunub

Ölkəmizdə həyata keçirilən əhalinin tibbi dispanserizasiyası çərçivəsində Beyləqan rayonunda fevralın 12-dən etibarən 8 yaşayış məntəqəsinin sakinləri və 13 idarə-müəssisə kollektivi olmaqla, 20 min 560 nəfər sakin müayinə olunub.

Beyləqan Rayon İcra Hakimiyyətindən AZƏRTAC-a bildiriblər ki, müayinələr zamanı xəstəlik aşkar olunan 1715 nəfər ambulator, 52 nəfər isə stasionar müalicəyə cəlb olunub, 5 nəfər Bakı şəhərinə göndərilib. Sakinlər mərkəzi rayon xəstəxanasında, Birinci Şahsevən, Təzəkənd və Dünyamalılar kənd sahə xəstəxanalarında müayinə olunurlar. Bundan başqa yüksək ixtisaslı mütəxəssislərdən ibarət həkim briqadası tərəfindən rayonun kəndlərində də əhalinin tibbi müayinəsi aparılır.

Tibbi müayinədən Beyləqan rayonunun 69 min 820 nəfər sakininin keçməsi nəzərdə tutulub.

***Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nəzdində Bakı Neft Energetika Kolleci tərəfindən 2018-ci ildə Gülarə Yaqub qızı Müslümovanın adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, Komissiyanın üzvləri və Katibliyin rəhbərliyi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Şəmsəddin Xanbabayevə bacısı

**ŞƏRQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Mərkəzi Neftçilər Xəstəxanasının kollektivi xəstəxananın Həmkarlar İttifaqı Komitəsinin sədri Faiq Əliyevə anası

**İŞRƏT XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ənvər Seyidov ailəsi ilə birlikdə Qurban Nəsirova əzizi

**ŞƏFİQƏ CƏMİL QIZI ƏHMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi dermatovenerologiya kafedrasının müdiri, professor Fərid Mahmudova anası

**AZADƏ MAHMUDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8569
Sifariş 821
Qiyməti 40 qəpik